AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

*Əlyazması hüququnda*

**MƏTANƏT ƏLİ QIZI ABDULLAYEVA**

# AZƏRBAYCAN BƏDİİ TƏFƏKKÜRÜNDƏ EZOTERİK DÜNYAGÖRÜŞÜN FƏLSƏFİ TƏHLİLİ (NIZAMININ, NƏSIMININ VƏ FÜZULININ YARADICILIĞI ƏSASINDA)

**İxtisas: 7210.01 - Fəlsəfə tarixi**

**Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Fəlsəfə və ictimai fikir tarixi şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** *Fəlsəfə üzrə elmlər doktoru, professor*
**Yusif İman oğlu Rüstəmov**

**Rəsmi opponentlər:** *AMEA-nın həqiqi üzvü,filologiya üzrə elmlər dortoru*
**Vasim Məmmədəli oğlu Məmmədəliyev**

*Fəlsəfə üzrə elmlər doktoru,dosent*
**Aydın Arif oğlu Əlizadə**

*Fəlsəfə üzrə elmlər doktoru, professor*
**İmran Bayram oğlu Cəfərzadə**

**Aparıcı təşkilat**: Azərbaycan Memarlıq və İnşaat Universiteti

Müdafiə "_25/10___" 2013-cü ildə saat ____ -da AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün fəaliyyət göstərən D01.115 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Bakı, AZ1143, Hüseyn Cavid prospekti, 31, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" "_______________" 2013-cü ildə göndərilmişdir.

**D01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **S.A.HƏSƏNOVA**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bədii mətnlərin, poetik nümunələrin batini müstəvisinin araşdırılması fəlsəfə tarixi üçün mühüm əhəmiyyət kəsb edir. Fəlsəfi poeziyanın tədqiqi konkret dövrün və bölgənin fəlsəfi düşüncəsi, dünyaanlamı haqqında zəngin məlumat verir. Fəl.ü.e.d., professor Səlahəddin Xəlilov fəlsəfi yüklü bədii ədəbiyyat nümunələrinə yüksək qiymət verərək yazır: «Xalqımızın milli-fəlsəfi fikri də çox vaxt öz əksini elmi traktatlar və monoqrafiyalarda deyil, bədii ədəbiyyatda tapmışdır. Ona görə fəlsəfi təfəkkürə gedən yol da, əsasən, ədəbiyyatdan keçmişdir».[1] Milli ədəbiyyatımızın həqiqi dəyərini onu bütün səviyyələrdə tədqiq edib qurtardıqdan sonra verməк.olar. Fəlsəfi poeziyada "gizli səviyyələrin" üzə çıxarılması, onların funksional dinamikasının müəyyənləşdirilməsi, rəmzi-metaforik dilinin deşifrə olunması və fəlsəfi şərhi bu istiqamətdə aparılan işlərin tərkib hissəsidir. Belə aktuallıqdan çıxış edərək biz klassik dövr Azərbaycan fəlsəfi poeziyasını (konkret olaraq Nizaminin, Nəsiminin və Füzulinin yaradıcılığını) tədqiqata cəlb etmişik. Problemə geniş, sistemli və dərin baxış yaratmaq üçün tədqiqat işi üç səmtdə işlənilib. Bunlar aşağıdakılardır:

1. Ezoterik biliklər və onların fəlsəfi poeziya vasitəsilə dərki probleminin araşdırılması.
2. İdrak prosesi olan eşq yolçuluğunun ezoterizm müstəvisində verilmə ənənələrinin (Uzaq Şərq və İslam Şərqi mistik ənənələrinin paralelliyi əsasında) araşdırılması.
3. Kosmoqoniya məsələlərinin izlənməsi.

Müasir sosialmədəni həyat üçün var olmanın rasional dərki ilə bərabər onun ezoterik (irrasional) dərki də önəmlidir. Həyatın, varlığın müxtəlif aspektlərdən və eyni zamanda, bütöv öyrənilməsi rasionalla irrasional idrakın vəhdəti şəraitində mümkündür. Bu gün ezoterizmin tədqiqinin aktuallığı ezoterik baxışlarla elmi baxışların müasir dünyabaxışı paradiqmasında bir-birinə zidd olmayan təsəvvürlərin vahid sisteminin spesifikliyi ilə müəyyən edilir.

Elmi-texniki tərəqqi rasional təfəkkürün sürətli inkişafına, yüksəlişinə şərait yaradaraq, xüsusən, postsovet məkanında, ezoterik dünyagörüşün və onu ifadə edən biliklərin inkar edilməsinə və unudulmasına gətirib çıxarmışdır. Ezoterik biliklərin unudulması dövrün ictimai-fəlsəfi təfəkkürünün, mənəvi mədəniyyətinin spesifikasının unudulmasıdır; şəxsi transsendental (mistik) təcrübələrdə sınanmış və rəmzi obrazlarla, metaforik kodlarla tarixin yaddaşına həkk olunmuş insan-kainat qarşılığının, əslində, vahid supersistem olması haqda çoxəsrlik bəşəri biliyin unudulmasıdır; insan fenomeninin idrak prosesində daxili potensialını geniş diapazonda realizə etmək imkanının unudulmasıdır. Fəlsəfi poeziyanın tədqiqi unudulmuş bilikləri bəşəriyyətə qaytarmaq şansı verir.

[1] Xəlilov S. Fəlsəfə: tarix və müasirlik (Fəlsəfi komporativistika). Bakı: Azərbaycan Universiteti, 2006, s. 48.



Müasir demokratiya şəraitində insanların dini-mistik biliklərə meyllənmələri ezoterik biliklərin aktuallığını artırır. Bu işdə kütləvi informasiya vasitələri də az rol oynamır. Lakin bu proses sistemsiz, dərin elmi əsaslara istinad edilmədən – naşı formada aparıldığına görə insanlar bu sahədə maariflənmək əvəzinə səhv istiqamətlərə meyllənirlər. Bəşəriyyətin mənəvi mədəniyyətinin ən dəyərli və ən əhəmiyyətli bazasını təşkil edən ezoterik biliklər əhali arasında daha çox magiya, fal kimi başa düşülür. Ezoterik biliklərin əsil məğzini təyin etmək, insanı, yaradılışı dərk etmə işində onların fundamental rolunu göstərmək problemə sistemli və dərin elmi yanaşma yolu ilə mümkündür. Ezoterik bilikləri ehtiva edən dünyagörüşün fəlsəfi poeziya - Nizami, Nəsimi və Füzuli yaradıcılığı kontekstində araşdırılması belə biliklərə ciddi elmi münasibət yaradır. Məsələyə elmi yanaşma digər humanitar elmlərin inkişafına da təkan verə bilər.

Ezoterik biliklərə müxtəlif aspektlərdən – tarixi, filoloji, kulturoloji, dini və s. aspektlərdən baxmaq olar. Lakin onların ən dərin səviyyəsini, məğzini fəlsəfi müstəvidə təyin etmək, fəlsəfi şərhlə dərk etmək mümkündür. Ona görə də ezoterik biliklərin fəlsəfi mənalandırılması, ezoterik bədii mətnlərin dərki (burada və daha sonra işlədəcəyimiz "mətn" sözü ümumiləşdirici məna daşıyaraq nəzm əsərlərini də özündə ehtiva edir) onlara dərin və fundamental yanaşma tələb edir. Fəlsəfi mənalandırılma onların aksioloji və qnoseoloji aspektlərini üzə çıxarır. Bu zaman insanın idrak problemi, onun azadlığı, insan, kainat, yaradılış, mikrokosmos və makrokosmos kimi bəşəriyyəti bütün zamanlarda düşündürən problemlər aktuallaşır

Problemin işlənməsi ona görə aktualdır ki, dünya mənəvi mədəniyyətinin tərkib hissəsini təşkil edən və konkret heç bir milli, etnik xüsusiyyətlər daşımayan ümumbəşəri ezoterik biliklər Azərbaycan fəlsəfi mədəniyyətinə də yad deyil. Ezoterik biliklər canlı biliklər də adlandırılır, belə ki onlar yüksək zəka, intellekt sahiblərinin fərdin Mütləqlə vəhdətinə yönəlmiş mistik təcrübələrində əldə olunur. "Bu canlı duyğuya (vəhdət yaşantısına – M.A.) xarici aləmdə nə fəlsəfə vasitəsilə, nə də dini vəhyin nüfuzuna inam yolu ilə çatmaq olmur, o, yalnız fərdi ruhun ənginliyində,

yəni mistik yolla doğulur”.[1] Fəlsəfə üçün ezoterik biliklərin dərk olunması metodu kimi mistik təcrübə maraq kəsb edir. Belə yolla əldə olunan biliklərin rasional izahı mümkün olmadığı üçün söz sənətində rəmzi, alleqorik, metaforik formalar ən əlverişli vasitədir. Bədii əsərlərin ezoterik mahiyyətinə aparan yol onların dilidir. Bu dil metafora dilidir. Fəlsəfi baxışların nominativ yox, metaforik ifadə üsulu (metaforaların çoxqatlı olması) mətnlərdə məhz dərin və gizli səviyyələrin mövcudluğunu göstərir.

Fəlsəfi poeziyanı məşhurlaşdıran cəhət mistik yaşantı ilə poetik istedadın vəhdətidir. Tədqiqatçı alim A.D.Knış belə deyir: «Həm poetik, həm də mistik təcrübə faktiki məzmun yox, emosional məzmun daşıyır; onların oxucuya, yaxud dinləyiciyə təsiri əhəmiyyətli dərəcədə onun (oxucunun – M.A.), demək olar ki, sezilməyən assosiasiyalar arasındakı əlaqəni duymaq və onları (assosiasiyaları – M.A.) özünün fərdi yaşantıları ilə əlaqələndirmək bacarığı ilə təyin olunur. Buna görə təəccüblü deyil ki, mistik yaşantılar çox vaxt poetik formaya bürünür» .[2]

Alman filosofu Eduard fon Qartman mistikanı dinlərin və fəlsəfi təlimlərin mənbəyi adlandıraraq belə yazır:”Beləliklə, mistika müxtəlif xalqlarda həm dini deyimlər üçün, həm də fəlsəfi təlimlər üçün mənbə olub. Bütün fəlsəfə tarixi, mistik yolla yaranmış məzmunun obrazlar və sübuta yetməz müddəalar formasından rasional sistem formalarına çevrilməsidir”.[3] Burada söhbət qeyri-şüuri ilə şüur hadisələri arasındakı əlaqədən, irrasionalla, intuitiv olanla rasional arasındakı əlaqədən və onun məntiqi yolla izahından gedir. Məşhur psixoloq Karl Qustav Yunqun və Nobel mükafatı laureatı fizik Volfqanq Paulinin birgə fəaliyyəti nəticəsində yaratdıqları sinxronluq nəzəriyyəsinə görə, konseptual olaraq bir-birinə yaxın olan, eynizamanlılıq çərçivəsinə daxil olan, lakin zahirən səbəb əlaqəsilə bağlanmayan hadisələr kvant səviyyəsində vəhdətdədir. İnsan şüurunun bunu dərk etmə təcrübəsi mistik yol kimi interpretasiya edilir.[4] Fəlsəfi poeziyada mistik biliklərin “rasionallaşması” isə metaforaların hesabına baş verir. Fəlsəfi şərh prosesi zamanı koqnitiv metaforalar dil hadisəsindən idrak fəaliyyətinin təzahür formasına çevrilir. Ezoterik dünyagörüşü ifadə edən, fəlsəfi təfəkkürlə bədii dilin sintezi kimi çıxış edən metaforaların koqnitiv

[1] Гартман Эдуард. Сущность мирового процесса, или философия бессознательного, том I, Москва: Красанд, 2010, с. 254.

[2] Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург: ДИЛЯ, 2004, с. 170.

[3] Гартман Эдуард. Сущность мирового процесса, или философия бессознательного, том I, Москва: Красанд, 2010, с. 255.

[4] Менский М. Сознание и квантовая механика. Фрязино: Век 2, 2011, с. 316.



funksiyasının araşdırılması fəlsəfi poeziyanın dərkində mühüm əhəmiyyət kəsb edir.

Əsərin aktuallığına dəlalət edən məsələlərdən biri irrasional idrak prosesinin insanın fiziologiyası və psixo-somatikası ilə bağlı olduğunu göstərən faktların poeziyada verildiyini üzə çıxarmaqdır. Uzaq Şərq, İslam Şərqi mistik ənənələrinin bədii-alleqorik dil kontekstində araşdırdığımız sufi eşq yolçuluğu adlandırılan özünüdərk prosesinin sakral mexanizminin bütün dövrlərdə və müxtəlif təlimlərdə, demək olar ki, eyni olduğu, insan fenomeninin mənəvi-ruhi təkamülünün zamandan, məkandan asılı olmayaraq, eyni qanunlarla idarə olunması məsələsi müxtəlif müəlliflərin mistik təcrübələrinin rəmzi təsvirlərinin mahiyyətindən aşkar olur. Diqqəti çəkən cəhət odur ki, hər şeydə müxtəliflik və fərqlər zahirə, xarici görüntülərə aiddir. Lakin zahirdən batinə istiqamətləndikdə fərqlər arasında sərhədlər silinir. Eyni mənşəyə məxsusluq ilahi mənşəyə məxsusluq deməkdir, bu, eşq yolçuluğu kimi böyük transformasiya prosesində dərk olunur. Karl Qustav Yunq belə prosesi qeyri-şüurinin şüurla birləşməsindən yaranan “transsendent funksiya”[1] adlandırır. Sufilərin mistik məqamları insanın fiziologiyası və psixo-somatikası ilə birbaşa bağlılığını anlamaq üçün insanın mistik qavrama mərkəzləri olan çakralar haqqında danışmaq və onların əhatəli təsnifatını vermək zəruridir. Belə zərurəti Uzaq Şərq, İslam Şərqi mistik-fəlsəfi dünyagörüşü kontekstində araşdırmağa cəhd göstərmişik. Eşq yolçuluğu adlanan irrasional idrak prosesinin mərhələli inkişafının təsvirinin fəlsəfi interpretasiyası, metaforaların koqnitiv funksiyalarının müəyyənləşdirilməsi «Yeddi gözəl» və «Həft cam» əsərlərinə yeni baxış yaradır və onların mistik-fəlsəfi traktat kimi dəyərləndirilməsi aktuallığı ortaya çıxır. Fəlsəfi poeziyanın araşdırılması, ezoterik biliklərin yerləşdirilmiş olduğu batini qatların üzə çıxarılması istiqamətində aparılan bütün işlərin təyinatı insanlara və insanlığa xidmətdən ibarətdir. Belə biliklər dünyagörüşü səciyyəsi daşımaqla bərabər, həm də nəfsin təlimi, mənəvi yüksəliş əldə etmə işində praktik funksiya daşıyır. Klassik dövr fəlsəfi poeziyanın sakral mənasını, ezoterizmini Uzaq Şərq mistik-fəlsəfi ənənələri ilə paralellikdə araşdırmaq səmərəli nəticələr verir. Bütöv tamın hissələri olaraq birinin qıfılı o birinin açarı ilə açıla bilər. Görkəmli tədqiqatçı alim, professor Məmməd Cəfər vaxtilə yazmışdır: «Antik yunan fəlsəfəsilə yanaşı, qədim hind fəlsəfəsini də bilmədən, nəzərə almadan nəinki Nizamini, həmçinin Azərbaycanın Xaqani, Nəsimi, Füzuli kimi

[1] Юнг К.Г. Синхрония: акаузальный объединяющий принцип. Москва: АСТ:2010, , с. 8.

mütəfəkkirlərini də düzgün başa düşmək çox çətindir».[1] İslamşünas alim Corc Vaşinqton Universitetinin professoru Seyid Hüseyn Nəsr "mahiyyətlərindəki uyğunluğu nəzərə alaraq, İslamın (təsəvvüfün) zen-buddizmlə, yoqa ilə və s. Uzaq Şərq hikmətləri ilə birləşməyinin tərəfdarıdır".[2] Müasir qloballaşma dövründə mədəniyyətlərin bir-birinə inteqrasiyası probleminə məhz bu aspektdən yanaşılarsa, iş daha effektli olar; mədəniyyətlərin dialoqunun daha çox genişlənməyə meylləndiyi indiki dövrdə ümumbəşəri mədəniyyətin tarixi köklərini harada axtarmağın lazım olduğu aydınlaşar. Nəhayət, fəlsəfi poeziyada kosmoqoniya məsələlərinin araşdırılması dissertasiyanın aktuallığını artırır. Kainatın yaradılışı, «Böyük Partlayış» nəzəriyyəsi, «nöqtə» rəmzinin mistik mahiyyəti, kvant reallığı, çoxölçülü aləmlər və s. kimi məsələlər yalnız ezoterizmdə araşdırılmır. Bu problem müasir fizika, astrofizika elmlərinin qlobal düşündürücü sahələridir. "Elmdə təbiət qanunları müşahidə olunan hadisələrin sistemli tədqiqi yolu ilə müəyyən edilir. Onların həqiqətə uyğunluğu eksperimentlər vasitəsilə sübuta yetirilir. Lakin belə prosesdə atılan ən vacib addım mühakimələrin məntiqi nəticəsindən tam fərqlənən gözlənilməz ilham, vəcd hallarıdır. Əlbəttə, belə üsulla əldə olunan hipotezalar mümkün olan səviyyələrdə rasional üsullarla, elmi metodlarla yoxlanılır, sınaqdan keçirilir. Amma təbiətin heç bir qeyri-adi qanunları (xüsusi və ümumi nisbilik nəzəriyyəsi və ya kvant mexanikası) elmin inkişafının həlledici anlarında (Albert Eynşteyn kimi) dahilərin məntiqdənkənar intuisiyası olmadan yarana bilməzdi. Demək belə çıxır ki, qədim müdriklərlə müasir elm dahilərininn arasındakı fərq ondadır ki, axırıncılar texniki işləri yerinə yetirən, dahi olmasa da, professional alimlər ordusu tərəfindən dəstəklənirlər. Bu arqument müasir elmi biliyin meydana gəldməsindən sonra nə üçün qədim biklərin atılmaması faktına aydınlıq gətirir. Həmçinin qədim biliklər özünün həqiqiliyini minilliklər içərisindən keçərək sağ qalması faktı ilə sübut edir".[3] Fəlsəfi poeziyamızdakı kosmoqoniya ilə bağlı problemlərə müasir elmi müstəvidə baxılması qədim biliklərin həqiqiliyinə və araşdırılmasının zəruriliyinə dəlalət edir.

**Problemin işlənmə dərəcəsi.** Azərbaycan fəlsəfi poeziyası həmişə ənənəvi ədəbi-bədii normalar çərçivəsində araşdırılmış, poetik qəlibdə tədqiq olunaraq gözəl bədii nümunələr, eyni zamanda, Azərbaycan fəlsəfi fikir tarixinin qiymətli inciləri kimi qiymətləndirilmişdir.

Azərbaycanda fəlsəfi poeziyamızın bu və ya digər aspektdən araşdırılması, o cümlədən, sakral mahiyyətin müxtəlif dərinliklərdə tədqiqi istiqamətində bir sıra dəyərli işlər yazılıb. Belə əsərlərdən aşağıdakıları göstərə bilərik: Yusif Rüstəmov «Əbu Nəfs Ömər Sürhəvərdinin təsəvvüf fəlsəfəsi» (Bakı, 2005); Zümrüd Quluzadə «Hürufilik və onun Azərbaycandakı nümayəndələri» (Bakı, 1970), «Şərq mədəniyyəti tarixinin problemləri və nizamişünaslıq» (Bakı, 1987), «Füzulişünaslığın problemləri» (Bakı, 2006); Solmaz Rzaquluzadə «X-XII əsrlərdə Azərbaycanda panteizm» (Baku, 1982); Zakir Məmmədov "Nizami Gəncəvinin fəlsəfi düşüncələri" (Bakı, 2000); Kazım Əzimov «Azərbaycan mütəfəkkirləri insan haqqında» (1986), «Zərdüştlüyün və İslamın dini-fəlsəfi doktrinalarında insan problemi» (Bakı,2009); Rüstəm Əliyev «Nizami Gəncəvi» (Baku, 1991); Nəsib Cümşüdoğlu «Füzulinin sənət və mərifət dünyası» (Bakı-Tehran, 1997); Sənan İbrahimov «Klassik ədəbiyyatda vəhdəti-vücud» (Bakı, 2007); Səadət Şixiyeva «Nəsiminin lirikası» (Bakı, 1990) və digərləri. Fəlsəfi poeziyanın metaforik dilinin araşdırılmasını fəl.ü.e.d.K.Əzimovun «Azərbaycan mütəfəkkirləri insan haqqında» əsərinin «Sufiliyin dilinin estetik analizi.Dünya simvollar səltənəti kimi» bölməsində görürük.

Klassik bədii nümunələrin batinində onların müəlliflərinin mistik dünyagörüşünü ifadə edən sakral – irrasional biliklər yerləşdiyinə görə bu tədqiqat işində ezoterik biliklər irrasional idrak kontekstində araşdırılır. İnsanın Mütləq həqiqətin dərki prosesində rasional biliyini tamamlayan və kamilləşdirən, rasional vasitələrlə rəmzi şəkildə ifadə edilən bilik forması olan[1] irrasional bilik ezoterizmin məğzində durur. Ezoterik biliklərlə bağlı elmi, elmi-populyar əsərlərdə irrasional bilik problemi müxtəlif səviyyələrdə araşdırılır. Son illərdə Azərbaycanda irrasional idrak probleminə həsr olunmuş ən mükəmməl əsər fəlsəfə elmləri doktoru K.Bünyadzadənin «Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk» (Bakı, 2006) əsəridir. Ə.Məmmədovun, V.İsmayılovun və F.Məmmədovun "Rasionallıq və qeyri-rasionallıq" (Bakı, 2010) əsərində irrasional və qeyri-rasional problem fərqli yanaşmada verilir. Problemi bu və ya digər aspektlərdən araşdıran digər müəlliflər də vardır. Bu baxımdan Z.Quluzadənin «XIII-XVI əsrlər Şərq fəlsəfəsinin inkişaf qanunuyğunluqları və Qərb-Şərq problemi» (Bakı, 1983) kitabında «Rasionalizm və irrasionalizmin mübarizəsi və çulğalaşması», Ə.Məmmədovun «Dialektik idrak və ümumelmi tədqiqat metodları» (Bakı, 1997) kitabında «İdrakda rasional və qeyri-rasional əməliyyatlar və onların metodoloji rolu», Ə.Abbasovun «İdrakın tarixi, nəzəriyyəsi və metodologiyası» (Bakı, 2001) kitabında «Nə üçün mistika?» bölmələrini

[1] Məmməd C. Nizaminin fikir dünyası. Bakı: Yazıçı, 1982, s. 82.
[2] Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, s. 81.
[3] Менский М. Сознание и квантовая механика. Фрязино: Век 2, 2011, с. 57.

[1] Bünyadzadə K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan, 2006, s. 29.

göstərmək olar.

Klassik ədəbi nümunələrin, fəlsəfi poeziyanın tədqiqatçısı şərqşünas alim A.Y.Bertelsin bütün fəaliyyəti sakral mətnləri araşdırmaq, mənaları şərh etmək istiqamətində qurulmuşdur. Onun bir çox əsərləri, o cümlədən, «Пять философских трактатов на тему «Афак и анфус»» (Москва, 1970); «Политический комментарий Шаха Ниматуллаха Вали на философскую касыду Насири-Хусрау » // Сад одного цетка (Москва, 1991) göstərmək olar.

Sakral mətnlərə marağın artdığı müasir dövrdə bu istiqamətdə təşkil olunan yeni nəşrlər də fəaliyyət göstərir. Bunlardan «İrfan» (Bakı şəhəri, redaktor Abbas Qurbanov) ictimai fikir jurnalı, «Dədə Qorqud» (Bakı, redaktor prof. Tofiq Hacıyev) elmi-nəzəri jurnalları göstərmək olar.

Hər bir araşdırma bütöv həqiqətin müxtəlif aspektlərinə baxış yaradır, həmçinin eyni bir aspektinə fərqli yanaşmalar da ola bilər. Azərbaycan bədii təfəkküründə ezoterik dünyagörüşün mövqeyini müəyyənləşdirmək, bütün aspektlərini işıqlandırmaq üçün əldə olan tədqiqat işləri kifayət eləmir. Fəlsəfi poeziyanın elə dərinlikləri var ki, hələ tədqiq olunmayıb və elm üçün hələlik qaranlıq bir sahədir. Klassik poeziyanın görkəmli tədqiqatçılarından prof. T.Kərimli bu barədə belə yazır: «Biz də hələlik Füzuli sözünün ilk laylarını – qabığını araşdırıb anlamaqla məşğuluq. Onun ən dərin qatlarındakı xəzinəyə sahib olmaq isə gələcək nəsillərin qismətindədir».[1] Bu fikir yalnız Füzuli yaradıcılığına yox, həm də Nizaminin, Nəsiminin yaradıcılığına və ümumiyyətlə, klassik dövr fəlsəfi poeziyaya aiddir. Təqdim etdiyimiz tədqiqat işində belə qaranlıq sahələrin müəyyən laylarına işıq salmağa çalışmışıq.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini ezoterik bilik fenomeni, onun fəlsəfi mahiyyəti təşkil edir.

Dissertasiyanın predmetini dahi söz ustadlarımızın –Nizaminin, Nəsiminin və Füzulinin poeziyasında metaforik dillə ifadə olunmuş ezoterik biliklər, onların fəlsəfi şərhi təşkil edır.

**Mövzunun məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında məqsəd – əsasında bəşəriyyətin qlobal problemlərindən biri kimi özünüdərk məsələsi duran, bədii nəzm əsərlərinin dərin semantik strukturlarında yerləşdirilmiş olan ezoterik dünyagörüşün sistemli, dərin araşdırmasını aparmaqdır. Bunun üçün Azərbaycanın mütəfəkkir şairlərinin – Nizaminin, Nəsiminin və Füzulinin metaforik dilinin gizli semantik strukturlarını araşdırmaqla əsərlərinin batini müstəvisini tədqiqata cəlb etmişik. Bu sənətkarların fəlsəfi dünyagörüşün təqdimolunma xüsusiyyətlərini Uzaq

[1] Kərimli T. Görünməyən Füzuli. Bakı: Elm, 2003, s. 27.



Şərq ezoterik dünyagörüşünün spesifik xüsusiyyətləri ilə müqayisəli verməyə çalışmışıq. Bu zaman irrasional idrak probleminin insanın psixosomatikası ilə bağlılığı mexanizminin metaforik təsvirinin müxtəlif etnomədəni areallarda çox az fərqlərlə verildiyini görürük. Belə mexanizmin iş prinsipi mistik təcrübədə həyata keçir. "İrrasional idrakın ilk metodu kimi mistik və ya ruhi təcrübə … istinad etdiyi dünyagörüşünə görə, dini-mistik və ya mistik-fəlsəfi formada ola bilər. Formasından asılı olmayaraq mistik təcrübə, ilk növbədə, insanın mənən saflaşması, paklaşması metodudur".[1] Azərbaycanda mistik dünyagörüşü ifadə edən ezoterik biliklərin fundamental bədii yazı nümunələri orta əsr fəlsəfi poeziyasıdır.Dahi sənətkarlar sözün bədii qüdrətindən böyük ustalıqla istifadə edərək dünyagörüşlərini mistik təcrübələrini, sakral biliklərini poetik əsərlərində məharətlə kodlaşdırmışlar. Böyük sənətkarların – Nizaminin, Nəsiminin və Füzulinin yaradıcılığının Azərbaycan fəlsəfi təfəkkürünün dərin səviyyələrini əks etdirən ezoterik-fəlsəfi ədəbiyyat kimi araşdırılması onların bədii və fəlsəfi dəyərinə yeni çalar əlavə edir. Bu baxımdan, tədqiqat işində sakral biliklərin yerləşdirildiyi batini süjetləri, mənaları üzə çıxarmaqla, yəni Nizaminin, Nəsiminin, Füzulinin klassik ədəbi nümunələrdə ilkin olaraq nəzərdə tutduqları və müxtəlif ədəbi priyomlar vasitəsilə əsərlərin ezoterik qatlarında yerləşdirdikləri bilikləri əldə etmək, onların aksioloji və qnoseoloji funksiyalarını müəyyənləşdirmək, kamil insan fenomeninin universallığı faktını, həmçinin məna və surət aləminin vəhdətini təcəssüm etdirən ezoterizmi Ümumvəhdət fəlsəfəsinin nailiyyəti kimi təqdim etmək istəmişik. Məqsədimizə aşağıdakı vəzifələri yerinə yetirərək pillə-pillə yaxınlaşmağa çalışmışıq:

- Ezoterik biliklərin insanların özünüdərk və aləmi dərketmə prosesində əhəmiyyətini müəyyənləşdirmək;
- Fəlsəfi poeziyamızda ezoterik biliklərin təqdim olunma vasitələrini –metaforaları, alleqorik obrazları və onların koqnitiv funksiyalarını müəyyənləşdirmək;
- Koqnitiv metaforaların, alleqorik fiqurların hazır qəliblər-klişelər kimi bədii mətnlərin fəlsəfi dərkində rolunu göstərmək;
- «Yeddi gözəl», «Həft cam» əsərlərinin batini süjetlərini üzə çıxarmaq, «eşq yolçuluğu» adlanan irrasional idrak prosesinin mistik təcrübə kontekstində insanın psixo-somatikası ilə bağlı mexanizmini (Uzaq Şərq mistik-fəlsəfi ənənələrinin paralelliyində) göstərmək;
- Müəlliflərin əsərlərində ezoterik üsulla təqdim etdikləri gizli

[1] Bünyadzadə K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan, 2006, s. 71.

biliklərin müasir dövrdə elmi əsaslara malik olduğunu göstərmək.

**Tədqiqatın mənbələri**. Tədqiqat işi yazılarkən əsas mənbə Nizaminin, Nəsiminin və Füzulinin poeziyası olub. Nizami Gəncəvinin epik poemalarının filoloji tərcümə variantlarından mənbə kimi istifadə etmişik. Fəlsəfi poeziyanın araşdırılmasında sakral biliklərin bazası olan fundamental abidələr - Qurani-Kərim və Bibliya bu işdə istifadə etdiyimiz qiymətli məxəzlərdir. Hind mistisizminin dünya şöhrətli nümayəndələrinin (Satya Sai Baba, Şri Aurobindo, Şivaya Subramuniyasvami, Həzrət İnayət Xan) mistik təcrübələrini təsvir edən əsərlər də tədqiqat işində qiymətli mənbə kimi istifadə olunub. Qərb mistik filosofu Avilli Terezanın, N.Berdyayevin, Rene Qenonun, Karl V.Ernstin, Şərqin görkəmli mütəfəkkirləri Əbu Həmid əl-Qəzalinin, İbn əl-Ərəbinin, Şihabəddin Sührəvərdinin,Yunus İmrənin, Mövlana Cəlaləddin Ruminin, Nəsirəddin Tusinin, Pir Vilayət-İnayət xanın və başqalarının əsərləri tədqiqat işinin mənbələrindəndir.

Adları çəkilən müəlliflərin əsərlərindən savayı, dissertasiya işində mövzu ilə bağlı dövri mətbuatda və jurnallarda çap olunan araşdırmalardan, tədqiqat işlərindən, elmi və elmi-populyar əsərlərdən istifadə edilmişdir.

**Mövzunun elmi yeniliyi.** Azərbaycan fəlsəfə tarixində Nizami, Nəsimi və Füzuli irsinin fəlsəfi dünyagörüşü aspektində araşdırılması sahəsində sanballı tədqiqat işləri var. Biz fəlsəfi poeziyamızın üç nəhəng sütununu tədqiqata cəlb edərək mistik-fəlsəfi dünyagörüşün bədii söz sənəti vasitəsilə təqdim olunmasına, yəni klassik dövr fəlsəfi poeziyamızdakı ezoterik müstəvinin üzə çıxarılmasına, onun funksional dinamikasını, daşıdığı missiyasını müəyyənləşdirməyə çalışmışıq.Nizami, Nəsimi, Füzuli yaradıcılığında ezoterik dünyagörüş araşdırılıb alt səviyyələr, metaforalar müəyyənləşdirildikdən sonra gələcəkdə digər müəlliflərin yaradıcılığındakı gizli plastlar təqdim olunmuş metaforik qəliblər əsasında tədqiq olunaraq fəlsəfə tarixi elminə zəngin material verə bilər.

Dissertasiyada diqqət mərkəzində duran məsələlərdən biri – irrasional idrak prosesi mexanizminin (insanın psixo-somatik aspektləri ilə birbaşa bağlılığının mistik təcrübə kontekstində) rəmzi dillə təqdim edildiyi əsərlərin - Nizami Gəncəvinin "Yeddi gözəl", Məhəmməd Füzulinin "Həft cam" poemalarının batini mahiyyətinin - rəmzi obrazların, metaforaların alt strukturlarının, sakral semantikalarının əldə olunması, koqnitiv funksiyalarının anlaşılması yolu ilə fəlsəfi təfsiridir. Bu da Azərbaycan fəlsəfə tarixində yenilik hesab edilə bilər. Bu iki poemanın təfsiri yolu ilə əldə olunan nəticə həm nəzəri, həm də praktiki əhəmiyyət daşıyır və onun vasitəsilə İmadəddin Nəsiminin "Şənbə günü mən uğradım ol sərvi-rəvanə" misrası ııə başlanan qəzəlinin batini mahiyyətini anlamaq mümkün olub.



Praktik mistisizmin nailiyyəti kimi dəyərləndirilən ezoterik biliklər idrakın yeni, daha yüksək səviyyələrini hiss etməyi öyrədir. Elə səviyyələri ki, oraya nə ağıl, nə də intellekt apara bilmir. Belə səviyyədə insanın həqiqi transformasiyası baş verir, qeyri-şüuri aktivləşir, məhdud idrak sahibi olan insan zaman və məkan fövqündə fiziki mövcudluq çərçivələrini (burada şüurün sərhədlərinin genişlənməsi nəzərdə tutulur) aşaraq özünün qüdrətini dərk edir."Şəxsiyyətin həqiqi genişlənməsi mənbəyini şəxsiyyətin dərinliklərindən götürən şüurun genişlənməsidir".[1] Dahi mütəfəkkirlərimiz kainat və insan haqqında (gizli) biliklərin əldə olunmasında hansısa bir yolun olduğunu (simvolik) söyləyirlər. Həmin yolun mexanizmi "Yeddi gözəl" və "Həft cam" əsərlərinin gizli semantik strukturunda verilir. Dünyanın dərki, ilk öncə, özünüdərk müstəvisindən başlayır və belə səviyyədə əldə olunan hər bir kiçik uğur yeni səviyyəyə qalxmaq üçün təməl olur. Dünyanın dərki belə təməllərin çoxluğu və möhkəmliyi ilə dərinləşir və genişlənir, dünyanın dərki rasional və irrasional biliklərin vəhdətində mükəmməlləşir.

Azərbaycan fəlsəfi poeziyasında ezoterik dünyagörüşün tədqiq edilməsi ilə bir sıra yeniliklər əldə olunmuşdur. Bunlar aşağıdakılardır:

a) Nizaminin, Nəsiminin, Füzulinin fəlsəfi görüşlərinin irrasional aspektinin spesifikası araşdırılıb.

b) Klassik dövr fəlsəfi poeziyada (Nizaminin, Nəsiminin və Füzulinin yaradıcılığı əsasında) ezoterik bilikləri ifadə edən bəzi ifadələrin və sözlərin fəlsəfi təfsiri verilib. Fəlsəfi poeziyanın ezoterik müstəvisində yerləşdirilmiş belə anlamlar poetik fiqurlarla, metaforik ifadələrlə «qıfıllanıb». Mümkün olan səviyyələrdə «qıfılları açmaqla» belə informasiyaları şərh etməyə çalışmışıq.

c) Azərbaycan bədii söz sənətindəki ezoterik dünyagörüşün fəlsəfi təhlilinə bir baxış yaradılıb – insanın irrasional idrak prosesinin mistik təcrübə kontekstində sakral mexanizmi araşdırılıb, onun universal enerji konsepsiyası ilə bağlılığı göstərilib.

d) Ümumvəhdət fəlsəfəsinin təzahürü kimi «Vahid həyat» konsepsiyasının əsasında duran və elmi əsasa malik olan universal enerji konsepsiyasının fəlsəfi poeziyada verilmə faktı təqdim olunub.

e) Təriqət yolu olan mistik eşq yolçuluğunun təsvirində konkretlik və aydınlıq yaratmaq üçün elmi ədəbiyyata iki yeni istilah – «mistik qavrama mərkəzləri» və «lətif çarxlar» gətirilib.

ə) «Fəlsəfə Kainatın müxtəlif vasitələrlə təsviridir» sentensiyasını

---

[1] Юнг К.Г. Синхрония: акаузальный объединяющий принцип. Москва: АСТ, 2010, с. 155.

doğruldan fəlsəfi poeziyada kosmoqoniya məsələlərinin geniş aspektdə verilməsi faktı üzə çıxarılır, fəlsəfi təfəkkür və fəlsəfi deyim imkanlarının hədsiz olduğu göstərilib.

f) Kosmoqoniya məsələlərinin araşdırılması diqqəti daha bir maraqlı cəhətə yönəldir: elmlərin eksperiment və elmi-tədqiqat metodları ilə sübut edə bilmədikləri təbiət hadisələrinin, kainatla bağlı faktların açılmasının, izahının fəlsəf poeziyada verildiyi üzə çıxarılır. Müasir elm həmin açıqlamaları elmi versiya kimi qəbul etməyə meyllidir (məs.,«Böyük Partlayış» nəzəriyyəsi).

g) Klassik ədəbiyyatda istifadə olunan «nöqtə» rəmzinin ezoterik mahiyyəti açıqlanır. Nöqtənin, istər fəlsəfi poeziyada, istərsə də təsviri sənətdə (avanqard sənətin bir cərəyanı olan suprematizmdə) dərin mistik-fəlsəfi dünyagörüşü, mikrokosmosla makrokosmosun vahidliyinin ilkin fazasını özündə ehtiva edən rəmz olduğu göstərilib.

ğ) Bütün bunları yerinə yetirməklə fəlsəfi mədəniyyətimizdə poetik nümunələrin fəlsəfi şərhi və ezoterik biliklərin tədqiqi işində yeni mərhələyə növbəti addım atılıb.

Azərbaycan bədii təfəkküründəki ezoterik dünyagörüşünə elmi münasibət yaratmaq, onu daha proqressiv baxış müstəvisindən və fəlsəfi aspektdən tədqiq etmək zərurəti fəlsəfə və filologiya elmləri qarşısında duran problemə çevrilir. Təqdim edilmiş tədqiqat işinin novatorluğu bu problemi kifayət qədər elmi əsaslarla, qismən də olsa, həll etmək olub.

**İşin nəzəri-təcrübi əhəmiyyəti.** Nizaminin, Nəsiminin və Füzulinin yaradıcılığı üzrə aparılan araşdırma poeziyanın fəlsəfi yük imkanının hüdudsuzluğunu göstərməklə yanaşı, mənəvi mədəniyyətin tərkib hissəsi olaraq həyatın mistik-fəlsəfi dərki mexanizmini anlamağa kömək edir. Dissertasiyada göstərildiyi kimi, ezoterik ənənələrə yiyələnən insan özünüdərk, özünün (ruhunun) gizli resurslarını, mənəvi-ruhi potensialını üzəçıxarma və realizəetmə prosesini düzgün qura bilər. Dissertasiyada qoyulan məsələlər, təqdim olunan yeniliklər onun nəzəri və praktiki əhəmiyyətini artırır.

- Ezoterik biliklərin ictimaiyyətə fəlsəfi poeziya müstəvisində təqdim edilməsi bütöv mistik-fəlsəfi dünyagörüşün bədii formada təqdimidir. Bu, ezoterik biliklərə münasibətin düzgün istiqamətdə qurulması mədəniyyətinin və ezoterik təfəkkürün formalaşmasında əhəmiyyətli rol oynaya bilər. Ezoterik dünyagörüşün elmi dissertasiyada tədqiqi faktı onun, əsasən, məişət təfəkkürü səviyyəsindən çıxması işində lazımlı mərhələdir.

- Ezoterik dünyagörüşün dahi mütəfəkkirlərin (Nizaminin, Nəsiminin və Füzulinin)yaradıcılığı üzrə araşdırılması problemə ciddi status verməklə yanaşı, həm də onun (problemin) bəşər tarixinin bütün zamanlarında



aktuallığı faktına dəlalət edir.

- Dissertasiyada ezoterik biliklərin nəzəri məsələləri ilə praktikasının sintezi nəticəsində ezoterik mahiyyətli mətnlərin dərk olunmasının, rəmzlərin düzgün fəlsəfi şərhinin mümkünlüyü göstərilir.

- Tədqiqat işində idrak prosesi mərhələlərinin insanın psixo-somatikası ilə bağlılığı mexanizminin təqdimi mənəvi-ruhi yüksəliş axtarışında olanlar üçün gizli təlimat funksiyasını yerinə yetirə bilər.

- Dissertasiyada müəyyən fəlsəfi problemlərin Uzaq Şərq və İslam Şərqi paralelliyində araşdırılması gələcək tədqiqat işlərinə yeni istiqamət verə bilər; elmi ədəbiyyata ilk dəfə gətirilən yeni istilahlar tədqiqat işlərində istifadə edilə bilər.

- Bu tədqiqat işində istifadə olunan müddəa və nəticələr fəlsəfə kurslarında, həmçinin klassik ədəbiyyatın tədrisində istifadə edilə bilər.

**Tədqiqatın metodologiyası.**.Ezoterik poeziyanı yalnız rasional düşüncə ilə tədqiq edib metaforaların rəmzi semantikasını araşdırmaq cəhdi gözlənilən nəticəni verə bilməzdi. Mətnlərin təhlilində ezoterik mənanın açılması aparıcı istiqamət olmalıdır. Bu istiqamətə üstünlük verən fəlsəfə elmləri doktoru K.Bünyadzadə yazır: «İrrasional təfəkkürə malik mütəfəkkirlərin əsərləri daha çox rəmzi dillə yazılmışdır. Bu üslub, xüsusilə, sufi mütəfəkkirlər üçün xarakterik olmuşdur. Bu baxımdan, mətnlərin təhlilində, fəlsəfi müqayisə və araşdırmalarda tətbiq olunan metoddan (hermenevtika, tarixi– fəlsəfi müqayisə, elmi sistemləşdirmə) asılı olmayaraq, sözlərin, kəlamların məhz ezoterik mənasının açılışı ön planda tutulmuşdur».[1] Tədqiqat işimizdə məhz bu istiqamət dominantlıq təşkil edir. Böyük mütəfəkkirlər əsərlərinin dərki işində uğurlu addımlar atmaq üçün səslərin, sözlərin anlaşılması və bəyənilməsi ilə kifayətlənməməyi, mənalara baş vurmağı tövsiyə edirlər. Füzuli "Ənisül-qəlb" qəsidəsində deyir:" *Kifayətlənmə səslə, hərflə, mənadə feyz axtar//Ki, Davudi nübüvvətdir əziz etmiş, nə əlhani[*]".*

İnsan şəxsi təcrübəsini, dünya, kainat haqqında düşüncələrini dil vasitəsilə kodlaşdırdığına görə poetik nümunələrin tədqiqi işi, ilk növbədə, linqvistik səviyyədə aparılmalıdır. Bu səbəbdən dissertasiyada koqnitiv linqvistikanın tətbiqi aktuallaşır. Koqnitiv linqvistikanı söz və ifadələrin dərin qatlardakı semantikası kimi başa düşmək düzgündür. Dil ünsürlərinin, işarələrinin semantikasının tədqiqi xalqın milli dil və təfəkkür xüsusiyyətlərini öyrənmək imkanını yaradır. Buna görə də poetik nümunələrin

[1] Bünyadzadə K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan, 2006, s. 15.

[*] əlhan – gözəl səs

semantik-koqnitiv analiz metodu ilə araşdırılması əhəmiyyət kəsb edir. Burada “zahirdən batinə” istiqaməti ilə hərəkət edilir ki, bu da Şərq mətnşünaslığında təvil adlanır. Bu metod ilkin mənadan mahiyyətə keçid yaradaraq linqvistik semantikadan məzmunun koqnitiv interpretasiyasına aparır. Bu metod fəlsəfi poeziyanın, poetik nümunələrin dərk olunmasında çox önəmli olan hermenevtik metodun tərkib hissəsi hesab edilə bilər. Dahi .mütəfəkkirlərimizin dünyagörüşlərinin ezoterik aspektini anlamaq üçün dissertasiya boyu aktuallığını saxlayan metaforaların koqnitiv-semantik tədqiqi işin səmərəliliyini artırır. Poetik nümunələri hermenevtik üsulla şərh etmədən müəlliflərin görüşlərini, həyata baxış sistemlərinin dərinliklərini və əsərlərində nəzərdə tutduqları əsas ideyanı, məqsədi bilə bilmərik.Poeziyaya xas xüsusiyyətlərin, onunla fəlsəfə arasında tarixən formalaşmış əlaqələrin araşdırılması, poetik mətnlərin dərin fəlsəfi məna və mahiyyətinin anlanıb aşkara çıxarılması, hermenevtik şərhi və təfsiri problemləri böyük aktuallıq kəsb edir[1] Mistikaya kifayət qədər ciddi münasibət bəsləməyən, hətta onu qəbul etməyən sırf nəzəriyyəçi-akademist alimlər son dərəcə professionallıqla apardıqları tədqiqatlarında ən vacib olanı əldən verirlər - metaforik müstəvinin altında gizlədilmiş mistik mənanı görmürlər. Sonra da sözlərin təfsiri üzərində baş sındıraraq bir nəticə hasil edə bilməyəndə qüsuru ya tərcümədə, yaxud da sözün düzgün formada köçürülməməsində görürlər. Nəsiminin uzaqgörənliyi burada da bizi heyrətləndirir: “*Ey kitab içində həqqi axtaran,//Nöqtə xətlərindən uzaq qalırsan.//Dürr üçün dənizin dibinə baş vur//,Ördək tək su üstə üzmə heç zaman”.*[2] «Dənizin dibinə baş vurmaq» hermenevtik təfsir üsuluna işarədir. Fəlsəfi poeziyada simvolik dillə ifadə olunmuş ezoterik dünyagörüşün xüsusiyyətlərini hərtərəfli öyrənmək üçün onun, yeri gəldikcə, Uzaq Şərq və İslam Şərqi mənəvi mədəniyyətində təzahürünü paralel araşdırmağa çalışmışıq. Bunun üçün istifadə etdiyimiz metod tarixi-fəlsəfi müqayisəli təhlildir, komparativ metoddur və belə təhlilin aparılması nəticəsində məlum olur ki, müxtəlif mədəni bölgələrə mənsubluğundan asılı olmayaraq mistik təcrübələrin təsvir edildiyi bədii mətnlərin batini, gizli mahiyyəti eynidir; onlar həm də həyatı təcəssüm etdirən müxtəlif sənət növlərinin (musiqi, təsviri sənət, tətbiqi-dekorativ sənət və s.) ezoterizmi ilə səsləşir. Belə ki, onların hamısı insan –Allah münasibətlərinin xətti inkişafının müxtəlif mövqelərində əldə edilən sakral informasiyaların daşıyıcısıdır. Elm, sənət, din, fəlsəfə ezoterik səviyyədə sintez olunaraq idrakın ən dərin imkanlarından xəbər verir, reallığı müxtəlif aspektlərdən tədqiq edən qollar

[1] Hacıyeva A.Hermenevtika Şərqdə.Bakı:Adiloğlu,2006,s.131.
[2] Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, s. 438.



birləşərək yeni fəlsəfi dünyagörüş – ezoterik dünyagörüş yaradır. Belə dünyagörüşdə dünyanın bütöv mənzərəsi təcəssümünü tapır. Ezoterik dünyagörüşün tədqiqi metodları mistik təcrübə yolu ilə əldə olunan və maddidə (söz formasında) qərarlaşmış biliyi üzə çıxarır. Bütün sakral informasiyalar bu səbəbdən həm rasional, həm də irrasional aspektin cəmləşmə yeridir. Onların şərhi, təfsiri və dərki işində idrakın hər iki aspektinin aktivləşməsi müsbət nəticə verir. Sakral informasiyaların dərin səviyyələrdə mənalandırılması işi, eyni zamanda, intuitiv duyma metodu ilə də bağlıdır. Obyektlə subyektin ayrılmasını kənarlaşdıran və onları birlik halına gətirən intuitiv metodda “bilik obyektləri şüura kopiya formasında yox, əsil olduğu kimi, yəni bilik prosesinə immanent olaraq verilir və buna görə obyekt olduğu kimi dərk olunur”.[1] Obyektin – metaforaların batini obrazlarının intuitiv metodla şüurda əks olunması onların həqiqi mənasının dərkidir. Azərbaycan fəlsəfi poeziyasının nümayəndələrindən hər birinin əməyi sayəsində yaranmış poeziya xəzinəmiz ümumbəşəri ezoterik biliklər sistemində parlaq mistik təcrübə ənənələri məktəbi olmağa layiqdir. Fəlsəfi poeziyanın ezoterik dilini araşdırıb dərk etmək işi fəlsəfi mədəniyyətimizin təbliğində və inkişaf etdirilməsində əhəmiyyətlidir.

**Dissertasiya işinin aprobasiyası**. Dissertasiya mövzusu müəllifin 1 monoqrafiyası, elmi toplu və jurnallarda nəşr edilmiş 33 məqaləsində, elmi konfrans və seminarlardakı, o cümlədən, Beynəlxalq Simpoziumlardakı çıxışlarında, həmçinin BDU «Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası» kafedrasının elmi tədris proqramında nəzərdə tutulmuş «Klassik ədəbiyyatın tədrisi» (magistratura pilləsində) fənnin tədrisində və tədris üçün hazırlanmış proqramda aprobasiyadan keçmişdir.

**İşin quruluşu**. Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı əsaslandırılır; problemin işlənmə dərəcəsi, məqsəd və vəzifələri aydınlaşdırılır, elmi yeniliyi, nəzəri-təcrübi əhəmiyyəti göstərilir.

Birinci fəsil «**Klassik dövr fəlsəfi poeziyada (Nizaminin, Nəsiminin və Füzulinin yaradıcılığında) ezoterik biliklərin təcəssümü**» adlanır və o, üç yarımfəsildən ibarətdir.

Bəşər tarixinmin bütün dövrlərində ezoterik biliklərə maraq olub.

[1] Медведева И.А. Взгляды Н.О.Лосского в контексте истории интуитивного познания. vestnik.yspi.org

Belə ki, onlar – ezoterik biliklər insanları düşündürən və onlara sirli görünən problemlərə, suallara bu və ya digər səviyyədə açıqlıq gətirir. “Yer kürəsində elə bir xalq, elə bir millət, elə bir dövlət yoxdur ki, ezoterika tarixinin xəzinəsinə öz töhfəsini verməsin. ... Ezoterika canlı bilik aləmidir. O, bizi ən uzaq dövrlərlə birləşdirən, bəşəriyyətin əbədi dəyərlərinin toplusudur. Ezoterizmin inkişafı insan cəmiyyətinin artıq ilkin başlanğıc dövrlərində özünü göstərmiş olduğu uzunmüddətli prosesdir”.[1] Ezoterik bilik müxtəlif inancların, dinlərin, fəlsəfi-mistik görüşlərin məğzini təşkil edən, aşkar və gizli qanunların vahidliyinin sirrini daşıyan və həyatın, kainatın həqiqi mahiyyətini özündə əks etdirən, insansevərlik prinsipinə dayaqlanan və gizli saxlanılan bilikdir. Yüksək (supramental) təfəkkürün məhsulu olan sənət nümunələrinin dili metafora dilidir, fərqi yoxdur, rənglərin «metaforası», notların «metaforası», rəqəmlərin «metaforası», ya da sözlərin. Fəlsəfi poeziyanın əsas metaforası bütün Uzaq Şərq, İslam Şərqi və Qərb ezoterik baxışlarının aparıcı ideyası kimi mistik reallığın – Mütləq Həqiqətin barəsindəki sözlərdir. «Ezoterizmi insanın təfəkkürünün və dünyaya baxışının alternativ formalarından biri kimi də müəyyən etmək olar. Ezoterik reallıq ruhi və vital reallıqdır. Ezoterik həqiqət, hər şeydən əvvəl, insanın özünə ünvanlanıb, yalnız özündən keçirəndən sonra o, zahiri aləmə yönəlir» [2].

Azərbaycanda «ezoterik(a)»,«ezoterizm» istilahlarına və onun özündə ehtiva etdiyi məsələlərə alimlər münasibət göstəriblər, lakin problemə sistemli baxış yoxdur. Bu sözü bir neçə yanaşmada qəbul etmək daha düzgün olar. Ezoterizmi əsas məqsədi çatdırmaq üçün müəllifin istifadə etdiyi şərhetmə metodu adlandıran fəl.ü..e.d. Z.Quluzadə «Sirlər xəzinəsi»nin araşdırmasında belə yazır:”Orada («Sirlər xəzinəsi»ndə – M.A.) ezoterizm mütəfəkkir tərəfindən şərhetmə metodu kimi istifadə olunub, alleqoriya isə ədəbi ifadə forması kimi”.[3] “Ezoterik məna”, “ezoterik qat”, “ezoterik müstəvi” ifadələrindəki “ezoterik” sözü “gizli” sözünə ekvivalentdir. Geniş mənada ezoterika (ezoterizm) varlığın və onun dərk olunması probleminin (ontologiya və qnoseologiyanın) sakral qanunauyğunluqlarının vahidliyini özündə ehtiva edir. Bu mənada, ezoterika ümumbəşəri mənəvi mədəniyyətin, fəlsəfi mədəniyyətin əsas kanonlarını özündə cəmləşdirən vahid müstəvi kimi çıxış edir. Ezoterik bilik müxtəlif inancların, dinlərin,

[1] aka-demos.kz Всемирная история эзотерики
[2] Иванова О.А. Специфика современного эзотеризма в России культурфилософский анализ: Дис. … канд.филос.наук. Ставрополь, 2006, 159 с. http: // www.lib.ua-ru.net/diss./
[3] История азербайджанской философии. Том I, Баку: Элм, 2002, с. 313.



fəlsəfi-mistik görüşlərin məğzini təşkil edən, aşkar və gizli qanunların vahidliyinin sirrini daşıyan və həyatın, kainatın həqiqi mahiyyətini özündə əks etdirən və gizli saxlanılan bilikdir. Ezoterik bilik idrak prosesində yarımçıq qalan hissəni – irrasional sahəni əhatə edir. Rusiya Elmlər Akademiyası Nəzəri Fizika İnstitutunun baş elmi işçisi, fizika-riyaziyyat elmləri doktoru, professor Mixail Menski “Şüur və kvant mexanikası” əsərində irrasionala ciddi münasibət göstərilməməsi ilə bağlı yazır: “Bu gün alim özünü din adamı hesab edir, ancaq elm ilə din arasında bir sədd çəkir ki, onlar bir-birinə mane olmasınlar. Bununla da dinin mistik aspektlərinə elmi baxış yaratmaq məsələsi dəf olunur, lakin həll olunmur. Bu problemə ciddi yanaşan alimlər çox deyil, ancaq belə baxış bucağı il-ildən populyarlaşır”.[1] XX əsrin əvvəllərində tanınmış fizik, Nobel mükafatı laureatı Volfqanq Pauli (1900-1958) ilə görkəmli psixoloq Karl Qustav Yunqun (1875-1961) birgə fəaliyyəti bu problemə ciddi yanaşmaya, materiya ilə ruhun vəhdətdə öyrənilməsinə bariz nümunə idi. Bu görkəmli şəxsiyyətlərin tədqiqatlarından çıxan nəticə belədir ki, həyat və şüur hadisələri fiziki qanunlar müstəvisində izah olunmalı deyil; fizika və şüur hadisələri bir-birini tamamlayan qanunlar kimi öyrənilməlidir; maddi və mənəvi, materiya və ruh sinxron tədqiq edilməlidir. Çünki fiziklərin materiyanın dərinliklərini, psixoloqların psixiki hadisələrin dərinliklərini öyrənmələri vahid gizli reallığa yanaşmanın müxtəlif üsullarıdır. Bunların birlikdə fəaliyyətini Yunq *sinxronluq* adlandırır. Rusiya Elmlər Akademiyasının İnsan Beyni İnstitutunun direktoru, Rusiya EA-nın müxbir üzvü S.V. Medvedev müsahiblərindən birində deyir ki, insan beyni maddi ilə ideal arasında interfeysdir. İnsanın idrak prosesində uğuru fiziki bədənlə ruhun yalnız harmoniyası şəraitində mümkündür. Ruh (psixe) və materiya bir-birilə qırılmaz əlaqədədir və onlar təsəvvürolunmaz transsendent faktorlara əsaslanırlar, (belə faktorlardan biri və birincisi kvant reallığıdır), onlar eyni şeyin iki fərqli aspektləridir, kvant həyatında bir-birilə birləşirlər. Yunqa görə, sinxronluq mövcudluğun bütün formaları arasındakı dərin ahəngdarlığa sübutdur.[2] Kvant reallığı ezoterizmin hələlik yeganə elmi izahını verə bilir. “Belə reallıqdan məlum olur ki, “maddi dünyanın qanunları ilə ruhani təlimlərin çoxdan formalaşmış qanunları arasında birbaşa əlaqə var. Materiya ilə ruhu, materializmlə idealizmi qarşı-qarşıya qoyan bütün səbəblər kvant reallığında yox olur. Əksinə, biliklərin bu iki sahəsinin nəinki kulturoloji səviyyədə, həm də qnoseoloji aspektdə bir-birinə ehtiyacı var. Bu istiqamətdə aparılan işlərin nəticəsində yalnız

[1] Менский М. Сознание и квантовая механика. Фрязино: Век 2, 2011, с. 49.
[2] Моаканин Р. Психология Юнга и Буддизм. Москва: Пanглосс, 2004, с. 63.

insanın şüur və ruhani aspektlərinin yox, həmçinin həyat fenomeninin yeni dərki baş verir”.[1] Ezoterizmin dərki birbaşa belə dərklə bağlıdır.Ezoterik dünyagörüşün bədii forma içərisində fəlsəfi dərki onun əsas elementlərinin – simvolların və metaforaların sakral funksiyalarının, gizli semantik məzmunlarının üzə çıxarılması ilə mümkündür.

Həm Şərq, həm də Qərb ezoterik biliyinin mahiyyəti insana özünü dərk etməkdə köməklik göstərməkdən ibarətdir. İnsan hər şeyə ölçüdürsə, birinci növbədə, o, bu ölçünün həm xarici, həm də batini mahiyyətini anlamalıdır. Xarici mahiyyət rasional yolla, ağılla, batini mahiyyət isə irrasionalla, onun əsas metodu introspektiv təcrübə - mistik yoldur. Rasional bilik intellekt, mühakimə, analiz və s. kimi ağıl kateqoriyaları ilə öyrənilən subyekt-obyekt münasibətlərinin özünə və onların zahiri tərəfinə aiddir. Təsəvvüfün idrak nəzəriyyəsinin əsasını təşkil edən mərifət «insanın müəyyən mənəvi inkişafının, yəni fövqəlaləmlə ünsiyyətinin, yaşadığı hal və məqamların nəticəsidir».[2] Mərifət – qnosis zaman fövqündə yaşanılan mistik təcrübədə əldə edilən vəhdət yaşantısıdır ki, bu da dünya ezoterizminin, o cümlədən, Azərbaycan fəlsəfi poeziyasının ezoterizminin ana xəttini təşkil edir. Nizami Gəncəvi, İmadəddin Nəsimi və Məhəmməd Füzuli kimi dahi sənətkarların yaradıcılığının ezoterik xarakteri məhz mistik təcrübədə əldə edilən “canlı biliklər” daşıması ilə və belə biliklərin ifadəsində istifadə etdikləri bədii vasitələrin xarakterikliyi və spesifikliyi ilə bağlıdır.Dahi mütəfəkkirlərimizin həyat kredosu mikronu (özünü) anlamadan, makronu (xarici aləmi), varlığı və Yaradanı dərk etmənin qeyri-mümkünlüyünə dayaqlanır. Özünü tanımanın mümkünlüyünün səbəbini N.Berdyayev belə açıqlayır: ”İnsanın kainatın sirlərini dərketmə qabiliyyətinin səbəbi ondadır ki, onunla eyni tərkibə malikdir, eyni təbii ünsürlər, eyni əql onda da mövcuddur. İnsan kainatın parçalanmış sonsuz kiçik hissəciyi deyil, o, çox kiçik, lakin bütöv kainatdır. İnsan – kainatdır, ona görə də kainat ona yad deyil”.[3] Ezoterik dünyagörüşdə insan fenomeni məhz kiçik aləm – mikrokosmos olaraq qəbul edilir. Kamil insan problemi ilə bağlı olaraq fəlsəfə elmləri doktoru K.Əzimov eyni mövqedən çıxış edərək belə deyir:”İnsan fərdi şeylərin “həqiqətinin”sintezi olaraq dünyaya məxsus hər bir şeyi özündə ehtiva edir. Kamil İnsan bu mənada Makrokosmosun “miniatür

[1] Менский М. Сознание и квантовая механика. Фрязино: Век 2, 2011, с. 297.
[2] Bünyadzadə K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan, 2006, s. 22.
[3] Бердяев Н. Философия свободы. Москва: АСТ, 2007, с. 87.



Təsviridir”.[1]

İnsan kainatın sirlərini özündə daşıyan mikrokosmdur, - deyənlər «gizli biliklər» xəzinəsinə yol tapmış müdrik insanlar idi. Sakral xəzinədən bəhrələnənlər bu barədə açıq danışardılarsa, aqibətləri faciəli olurdu. Çox zaman insanlar dilin müxtəlif bədii ifadə formalarından məharətlə istifadə edərək sakral-mistik biliklərini müxtəlif sənət növləri formasında tarixin yaddaşına ustalıqla nəqş edirdilər. Cəmiyyəti texnika ilə silahlandıran təbiət haqqında mexaniki biliklərdən əlavə aləmin, kosmosun batini quruluşunu, oradakı varlıqların, ünsürlərin əlaqələrini, ezoterik qanunlarını bilmək üçün insanlara rasional ağıldan savayı irrasional düşüncə, genişlənmiş idrak gərəkdir. Tarixin bütün dövrlərində, bəşəriyyətin bütün inkişaf mərhələlərində insanların irrasional biliklərə ehtiyacı olub. Yalnız irrasional idrak məna aləmini qavraya bilər, ağılsa surət aləmində fəaliyyət göstərir. Məna aləminin sirlərini heç kəs, hətta hikmət sahibləri ağıl vasitəsilə aça bilməz. Füzuli bu münasibətlə belə deyir:*“Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən//Ki, açsın hikmət əhli əql üzündən bu müəmmanı”*.[2]

Ezoterizm bünövrəsi introspektiv təcrübə üzərində qurulmuş möhtəşəm bir tikilidir. «Belə təcrübədə insan özünün qapalı ruhi çərçivəsindən çıxıb varlığın ruhi ilkin əsası ilə təmasa girir… Mistika fərdiliyin dəf edilməsi və fərdilik halından çıxmadır. O, ruhani həyatın həm dərinliyi, həm də zirvəsidir».[3]

XIX əsrin ortalarından etibarən Qərbdə Şərq dini-mistik ənənələrinə dayaqlanaraq ezoterik təlimlər yaranır.Dərin simvolizmi, rəngarəng koloriti, qeyri-adekvat ifadə formaları ilə fərqlənən Şərq ezoterizmi və onu «qidalandıran» dini-mistik ənənələr (induizm,buddizm, daosizm; iudaizmdə kabbala, islam şərqində sufilik ənənələri) Qərb üçün məktəbdir.. XIX əsrdə Yelena Blavatskayanın (1831-1891) (tələbəsi Anni Bezant da oraya daxil idi) “Teosofiya cəmiyyəti”, Rudolf Şteynerin (1861-1925) “Antroposofiya cəmiyyəti”, Nikolay Rerixin (1874-1947) “Aqni Yoqa”sı (Canlı etika), Georgi Qurciyevin (1866-1949) “Dördüncü Yol”u fundamental ezoterizm məktəbləri hesab olunur. Fransız filosofu, sufiliyin Şəziliyə təriqətinə mənsub olan Rene Qenonun (1886-1951) bütün yaradıcılığı metafizik doktrinalara dayaqlanan ezoterizmin müxtəlif aspektlərini əhatə edir. “Karl Qustav Yunqu da ezoterizmin nümayəndəsi kimi dəyərləndirmək olar: onun

[1] Азимов К. Проблема человека в религиозно-философских доктринах Зороастризма и Ислама. Баку: Леттерпресс, 2009, с. 229.
[2] Füzuli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, s. 229.
[3] Бердяев Н. Философия свободного духа. http: // www.vehi.net | berdyaev | fsduha | o.html

əsərlərində əlkimya kimi ezoterik mövzu çözələnir, sinxronluq nəzəriyyəsində isə mütabiqlik kimi ezoterik anlayış müasir psixologiya terminləri ilə ifadə olunub”.[1] Ezoterik dünyagörüşü, bir elm olaraq, Şərq fəlsəfəsinin işığı ilə tədqiq etmək lazımdır. (Biz burada həqiqi ezoterik biliklərə zidd olan, dünyaya total nəzarətə iddialı olan ictimai-siyasi hərəkat –mondializm və dini-siyasi mahiyyətli ekumenizm kimi radikal istiqamətləri kənar tuturuq.)

**Ezoterik biliklərin dərkində metaforanın rolu.** Fəlsəfi poeziya daşıdığı batini məna yükünə görə ezoterik poeziyadır. Həqiqi mənası batinində gizlədilən, formanın gözəl örtük olduğu, introspektiv təcrübələrdən alınmış sakral biliklərin rəmzləşdirildiyi poeziya qiymətli və əvəzsiz tədqiqat obyekti, zəngin milli xəzinəmizdir. Xəzinənin gövhərlərini əldə etmək üçün əvvəlcə onun bağlı qapısını açmaq lazımdır. Qapının açarı rəmzlərin dilidir, bu dil isə metaforadır, alleqoriyadır. «Belə rəmz və alleqoriyalar məntiqi qurulmuş mühakimlərin vasitəsilə ötürülməsi mümkün olmayan zərif yaşantıları ifadə etməyə imkan verir».[2] Belə imkan müxtəlif səviyyələrdə təzahür oluna bilər. Nizaminin rəmzi dilinin fəlsəfi məzmununu araşdıran A.Y.Bertels yazır: «Orta əsrlər ədəbiyyatının simvolu olan metaforanın məzmunu mövcud olan ilahiyyat və təbiətşünaslıq təsəvvürləri ilə müəyyənləşdirilir… Bu terminlər … aləmi və Allahı dərk etməkdən ibarət özünüdərkin çox mühüm ilkin anlayışlarıdır. Nizami kimi bir şair onları buna tam uyğun şəkildə adlandırır və poetik obrazlara tətbiq edir».[3]

Poetik obrazlarda dövrün böyük mütəfəkkirlərinin fəlsəfi düşüncə tərzi, dünyaanlamı əks olunur. Bu mənada fəlsəfi poeziyanın düzgün dərki, müəllifin dünyagörüşünün anlaşılması birbaşa metaforaların dəqiq araşdırılması və düzgün mənalandırılması işi ilə birbaşa bağlıdır.

Fəlsəfi-bədii əsərlərin, fəlsəfi poeziyanın ezoterizminin kateqorial aparatı metaforalar, analogiyalar, alleqoriyalar, məna-obrazlar şəklində özünü göstərir, yəni metaforik dillə dünyanın və onun dərkinin əks olunması baş verir. Tədqiqatçılar göstərir ki, metaforanın qavranılmasında obrazlı termin mücərrəd terminin anlaşılması üçün istifadə olunur və metaforanın bu xüsusiyyəti ezoterik mətnin yaradılmasında vacib amildir. Belə əsərlərdə əsas ideya ümumi məna formasında yox, bədii obrazlar formasında çatdırılır. Obraz özünün metaforik qəlibində varlığın həqiqətinin dərk olun-

[1] Менский М. Сознание и квантовая механика. Фрязино: Век 2, 2011, с. 52.
[2] Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург: ДИЛЯ, 2004, с. 170.
[3] Бертельс А.Е. Пять философских трактатов на тему «Афак ва анфус». Москва: Восточная литература, 1970, с. 99.



masında əsas üsul kimi çıxış edir. Bədii ədəbiyyatda metafora, alleqoriya adlandırılan belə sistem «yol verilməz» informasiyaların bizim şüurumuz tərəfindən dərk olunmasına kömək edən vasitədən başqa bir şey deyil. Bədii formanın, ezoterik mahiyyətli mətnin fəlsəfi dərki məhz onun əsas elementlərinin – metaforaların sakral mahiyyətlərinin, koqnitiv funksiyalarının, gizli semantik məzmunların üzə çıxarılması ilə mümkündür. “Ezoterik mətndə metaforanın funksional xüsusiyyətlərindən biri onun yalnız bir çox metafiziki məsələlərin sirr pərdəsini açmaq deyil, həm də həqiqəti gizlətməkdir. Metaforanın kodlaşdırma keyfiyyəti imkan verir ki, müəyyən inkişaf mərhələsində dayanan cəmiyyətin qəbul etməyə hələ hazır olmadığı biliklər açılmasın, lakin onlara işarə edilsin. Nizami Gəncəvi əsərlərinin gizli səviyyələrinni anlaşılması, mənalandırılması problemini belə göstərir:” *Onun dənəsi əncir ləzzəti verir,// İçində isə badam ləpəsi var.// Surətpərəstlər üçün surəti qəşəngdir,// Məzmun sevənlər üçün də məğzi vardır.// Bağlı bir mücrüdür, içi dürlə dolu,// Gözəl dolğun ibarələr isə onun açarıdır.// Bu dürlərin sapı o başın boynunu bəzəyər ki,// Açarı ilə mücrünün qıfılını aça bilsin.// Onun nəzmində nə yaxşı, pisi varsa, // Hamısı rəmz və hikmətin işarələridir*”.[1] Hər ***dənənin əncir ləzzət***” ifadəsi poetik dilin gözəlliyinə, hər sözün dəqiq və düzgün işlədilməsinə, ***içində badam ləpəsi*** metaforası isə sözün alt mənasının, ezoterik məzmunun olmasına işarədir. ***Bağlı mücrü*** metaforası sözlərin iç tutumu üçün qəlib funksiyası daşıdığını söyləyən müəllif əsərin qiymətinin onun batini müstəvisində olduğunu ***içi dürlə dolu*** ifadəsi ilə bildirir. Hələ antik dövr filosofları metaforanın aləmi dərk işində rolunu qiymətləndirirdilər. “Bir çox əsrlər ərzində idrak prosesinin mexanizminin anlaşılması “mum səth üzərində iz salan möhür” metaforasından istifadə yolu ilə baş verirdi. Beləcə, mum lövhəcik üzərinə hərflərin çəkilməsi obrazı Platonun “Teetet” dialoqunda özünü göstərir. Bu obraz antik dövr filosoflarından ilk dəfə «metafora» sözünü işlədən Aristotelin “Ruh haqqında” traktatında təkrarlanır”.[2] Aristotel metaforaya yalnız estetik təsir yaradan dil ünsürü kimi baxmır, həm də onun idrak prosesindəki rolunu vurğulayır. Poeziyaya gəldikdə isə, Aristotel onun digər sənət növlərindən fərqli olaraq daha fəlsəfi və daha ciddi olduğunu söyləyir.

Aristotel metaforanı insan təcrübəsinin sonsuz rəngarəngliyinin, son nəticədə isə dünyanın təsvirində dil vasitələrinin məhdudluğu problemini həll edən vasitə adlandırırdı.

“Füzuli dilinin lüğət tərkibində dinə, habelə elmin müxtəlif sahə-

[1] Nizami Gəncəvi. Yeddi gözəl / Ön söz. Bakı: Yazıçı, 1983, s. 290.
[2] http://biomagic.by.ru/aura

lərinə (nücum, təbabət, fəlsəfə, məntiq və s.) məxsus söz və terminlər üstünlük təşkil edir. Bunların da əksəriyyəti jarqonizmlər (təsəvvüf terminləri) funksiyasında işlədilir. Bir də buna görə Füzulini dərk etmək "çətindir". Füzuli şeirində söz öz mənasından artıq məna bildirir".[1] Bu fikir Nizaminin və Nəsiminin irsinə də aiddir. Sözün, metaforik obrazın öz mənasından da artıq məna bildirməsi sözün ilkin dərk səviyyəsindən çıxıb dərin semantik qatlarda yeni məna, fəlsəfi-koqnitiv yük qazanması deməkdir. Koqnitiv semantikada müəyyən klişelər vasitəsilə insanın fiziki və hissi həyatlnda və təcrübəsində əldə etdiyi biliklər mücərrəd sahələrə proyeksiya olunur.Metafora koqtiniv funksiya daşıdıqda elmi biliklər əldəetmə vasitəsi olaraq o, fəlsəfi dərk ünsürünə çevrilir. Adi metaforadan fərqli olaraq koqnitiv metafora insanın konseptual sahəsinin ən dərin hissələrinə çatmağa imkan verir.[2] Belə metafora həm də konseptual metafora adlanır. Məsələn, klassik şairlərin poetik dilində, o cümlədən, təsəvüf poeziyasında çox işlənən, poeziyaya romantik çalar verən və ilk baxışda fəlsəfi yükə iddialı görünməyən ***şam/alov/işıq***, ***pərvanə*** metaforaları təsəvvüf terminləri statusunda çıxış edərkən konseptual funksiya daşımağa xidmət edir. Fəlsəfi poeziyada eşq konsepsiyasının dərkində bu metaforalar funksional dinamika daşıyır. Nəsimi onları belə işlədir: *"Kim ki pərvanə sifət eşqə yaxılmaz, yanılır,// Nə bilir ol səma kim, pərtövi-ənvar nədir"*.Burada ***pərvanə***, ***pərtövi-ənvar*** (nur işığı) metaforaları həm semantik məna əlaqəsi ilə bir-birinə bağlıdır, eyni zamanda, onlar ezoterik anlamda bitkin rəmz olaraq bütöv bir konsepsiyanı – vəhdəti-vücudu anlamağa xidmət edir.

Metafora yaradılış prosesinin təfəkkürün dayaqlandığı əsaslarını dərketmədə etnik, milli özəllik yanaşma çərçivəsi ilə məhdudlaşmır. O həm də universal obraz kimi qlobal bir funksiya daşıyır. "Milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlar üçün mövcud olan universal konseptlər var. Belə konseptlərə misal olaraq "həyat", "ölüm", "sevgi" və s. göstərmək olar".[3] Belə konseptlər ezoterik dünyagörüşlə bağlananda metaforik cildə bürünməyə məcbur olur.Universal forma kimi istifadə edilən metaforalardan biri insanı (arzu və ehtiraslarını) və onun nəfsini (canını) ifadə edən ***at, araba, sürücü*** triadasıdır. Bu üçlüyün biri, ikisi, yaxud da hər üçü birlikdə müxtəlif etno-mədəni bölgələrdə fəlsəfi antropologiyaya xidmət edir.

---

[1] Adilov M. Məhəmməd Füzulinin üslubu və poetik dili. Bakı: Maarif, 1996, s.267.
[2] Маккормак Э.Когнитивная теория метафоры/Теория метафоры.М,,1990,381.
[3]Коровина И.В. Соотношение понятий «знак», «референт», «денотат» и «концепт» как основных элементов референции // Вестник Нижегородского Университета им. Н.И.Лобачевского, 2010, № 4 (1), с. 333.



Sufi mətnlərini və simvolikasını araşdıran professor A.E.Bertels yazır ki, sufi mütəfəkkiri Yusif Qarabaği rəmzlərdən istifadə edərək idrak yolunda (mərifətdə) bədəni at, canı isə atlı adlandırır.[1] İnduizmin Veda müdrikliyində insan fenomenin dərki fəlsəfəsinin əsas metaforası bədənlə nəfsin (canın) qarşılıqlı münaibətini ifadə edən ***araba, at*** və ***sürücü*** anlayışlarıdır. "Veda"da "hisslər qaçan atlara, ağıl cilova, dərrakə arabaçıya, can isə bu maddi bədən arabasında oturan sərnişinə bənzəyir.".[2] Platonda ("Fedr") ***at arabası*** insanın nəfsini (canını) simvolizə edir. ***Arabaçı*** dərrakədir. Arabaya qoşulmuş iki fərqli at – ***ağ və qara atlar*** nəfsin iki başlanğıcını (ali və aşağı xisləti yaradan keyfiyyətləri) simvolizə edir:.[3]

***At*** metaforasının fəlsəfi-koqnitiv funksiyasından çıxış edərək Quranın «Əl-Adiyat – Qaçan atlar» surəsini anlamağa cəhd etmək olar. Qurana görə, ən böyük və ən çətin cihad insanın nəfsi ilə apardığı mübarizədir. «Əl-Adiyat» surəsində insanın arzularından doğaraq onun ruhani varlığını özünə unutdurub maddi həyata bağlayan həris hissləri anlayışı «qaçan atlar» ifadəsində kodlaşdırılıb.

Araşdırmalar göstərir ki, nə zaman və harada yaranmasından asılı olmayaraq oxşar arxetiplər müxtəlif mədəni bölgələrdə uyğun funksional mahiyyət daşıyır. Cəlaləddin Rumi yemək, içmək, mülki-mala sahib olmaq arzusundan kənara çıxa bilməyən bədəni ata, dünyanı isə axura bənzədirr"[4] deyir. Nəsiminin fəlsəfi antropologiyasının anlaşılmasında ***at*** metaforasının eyni koqnitiv funksiya daşıdığını görürük: "*Divi-rəcimin atıdır əmmarə nəfsin mərkəbi, //Tərk eylə divin atını, yapışma anın yalına"!*[5]

İzah: Əmmarə (əmr edən) nəfsi çapdıran iyrənc divin (nəfsin) atıdır, onu tərk elə.

Nizami yaradıcılığında eyni ideya ***gur*** (çöl ulağı) metaforasında kodlaşdırılıb. "Yeddi gözəl" əsərinin batini süjetinin araşdırılması və dərk olunması işində bu metaforanın ezoterik mənası açar rolu oynayır. Əsər boyu Bəhram Gurun ***gur ovlaması*** anlayışı dərin semantik məzmun daşıyaraq təsəvvüf fəlsəfəsinin ana xəttini təşkil edən nəfsin cihadı problemini simvolizə edir. Nəfsin cihadında ən böyük maneə isə ***rəqib***dir. **«Rəqib» metaforasının fəlsəfi dərki.** Klassik poeziyada ***rəqib*** «saflaşmış nəfsin yüksək keyfiyyətləri ilə harmoniyaya daxil olana qədər muxtariyyətini

---

[1] Бертельс А.Е. Пять философских трактатов на тему «Афак ва анфус». Москва: Восточная литература, 1970, с. 109.
[2] Bhaqavad-Qita, Bhaktivedanta Buk Trast, 1991, c. 34.
[3] aka-demos.kz Всемирная история эзотерики
[4] Rumi Mevlana Celaleddin. Fihi Ma Fih. İstanbul: Şənyıldız, 2007.
[5] Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, c. 23.

qoruyub saxlamağa çalışan», sevənlə Sevilən, ruhla Allah arasında çəpər olan fiziki bədəni bildirir. ***Rəqib*** metaforası irrasional idrak prosesi olan eşq yolçuluğunun, Mütləqə çatmanın təsvirində aksioloji funksiya daşıyaraq fiziki bədənin ruhla harmoniyaya daxil olana qədər neqativ rolunu göstərməyə xidmət edir. Mistiklərə görə, «bədən ruhun əzab çəkdiyi yerdir»,[1] Nəsimi deyir:"*Tərk eylədi Nəsimi yolunda vücudunu,// Gör onu kim, nə möhtəşəm olmuş fəqirdir*".[2] ***Rəqibin*** işi cövrü cəfa vermək, zülm etmək, aşiqin vüsala çatmasına mane olmaqdır. «*Səndən muradə çatmağım olmuş mahal, // Həsrətdə qalmağımda rəqibin rizasi var*» - deyən Füzuli göstərir ki, ***rəqibin*** müqavimətinə baxmayaraq haqq aşiqini məqsədindən döndərmək çətindir. Nəsimiyə görə, özlərində ilahi nuru görə bilən Haqq aşiqləri üçün ***rəqib*** (fiziki bədən) maneə ola bilməz / ***gülzar*** sevən üçün ***tikan*** qorxulu olmaz:" *Kim sevsə gülü, qorxusu heç xardan olmaz,//Yar aşiqin qorxusu əğyardan olmaz.//Etsin nə qədər cövrü cəfa etsə rəqibim,//Gülzar sevənin qorxusu heç xardan olmaz.*[3]

Bədənə xas keyfiyyət və arzular ruhun zəncirləridir. ***Rəqib/düşmən*** və ***dost*** metaforaları ilə ifadə olunan bədənlə ruhun ziddiyəti, antropoloji antinomiya poetik nümunələrin fəlsəfi dərkində əhəmiyyətli rol oynayır. "*Ayrılıqdan yar mənim bağrımı büryan eylədi,//Özümü bir yana saldı, məni bir yan eylədi.//Zəfəranə bənzimi döndərdi ol birəhm yar,//Düşməni xəndan edib, dostunu giryan eylədi*".[4] Bu parçada Nəsiminin istifadə etdiyi antropoloji antinomiya - ***düşmən – dost*** metaforaları qəzəlin fəlsəfi məna yükünü müəyyənləşdirir. Antropoloji antinomiyada insan təbiətinin ziddiyyəti ifadə olunur.

Ifəslin ikinci yarımbölməsi "**Klassik poema mistik-fəlsəfi traktat kimi**" adlanır. «Həqiqət mistik dərketmədə verilir» - sentensiyasını dərk edən insanlar həqiqətin yolunu, yəqin ki, hamıdan yaxşı bilirdilər. E.Qartman bu barədə belə yazır: "Fəlsəfədə hər cür orijinal düşünən mütəfəkkiri mistik adlandırmaq olar, belə ki, fəlsəfə tarixində yeni istiqamət heç zaman şüurlu surətdə məlumat toplama və sınama yolu ilə zorla meydana gəlməyib, əksinə, o, həmişə şeylərin ən dərin qatlarına yönlənən bircə dahiyanə baxışla yaranıb: çünki fəlsəfənin mövzusu - məhz fərdin mütləqə olan münasibəti yalnız mistik yolla dərk olunan hisslə həmişə sıx

---

[1] Füzuli. Əsərləri: 5 cilddə, V c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1985, s. 143.
[2] Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, V c. İmadəddin Nəsimi. Bakı: Elm, 1985, s. 87.
[3] Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, s. 318.
[4] Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, s. 85.



əlaqədə durur".[1] Mistik yaşantıların poeziyada əks olunması probleminə çox ciddi elmi münasibət göstərən və mistikanı «mənəvi mədəniyyətin universal fenomeni» adlandıran Z.Quluzadə idrak problemində mistikanın rolunu belə qiymətləndirir: «Mistikanın həyatiliyi, onun «əbədiliyi» idrak prosesinin sonsuzluğundadır".[2] Batinində qiymətli miras gizlədilmiş əsərlərdən biri Nizami Gəncəvinin «Yeddi gözəl» poemasıdır. «Yeddi gözəl»də Nizaminin əsas məqsədi Bəhramın həyatını qələmə almaq olmamışdır. «Simvolik struktur obyektiv göstərici deyil; o yalnız təqdim olunur və şüurun yaradıcılıq aktında özünün konkret ifadəsini tapır. Yalnız bu zaman məna cərgələrinin mürəkkəbliyi və batini nisbətləri, onların struktur üzvü vahidliyi, bütövlüyü tamamilə həyata keçirilir».[3] Simvolik strukturlu əsərlər Şərq ədəbiyyatında üstünlük təşkil edirdi. Ümumiyyətlə, Şərq ezoterik ədəbiyyatında, o cümlədən, sufi ədəbiyyatında müxəlif tematikalı epik poemalar, o sıradan, hökmdarların həyatını təsvir edən əsərlər, əslində, alleqorik örtüklü fəlsəfi-mistik traktatlardır. «Yeddi gözəl» epik poeması Nizami Gəncəvinin özünün mistik təcrübəsinin bədii formada təsviridir. Yalnız mistik təcrübə yaşayan müəlliflər onun (təcrübənin) mexanizmini təsvir və ifadə edə bilər. Əl-Qəzali özünün təcrübə yolunu bu cür açıqlayır: «Mən dahi sufi şeyxlərinin kitablarını oxuyaraq sufilik elmini öyrənməyə başladım və onların təliminin mahiyyətinə vardım. Başa düşdüm ki, intellektual düşüncə və rasional ağıl yolu ilə Allaha yaxınlaşmaq mümkün deyil, Allaha aparan yol ilham, «əhval» vəziyyətində mistik keçid və mənən yenidən dirilmə vasitəsilə mümkündür».[4]

Dərin mistik təcrübə yaşamış böyük mütəfəkkirlərin əsərlərinin dili batini məna daşıyan məcazi ifadələr, metaforalar, alleqorik fiqurlarla zəngindir. Nizami Gəncəvi sözlərə məcazi məna verməyi ***sözün zülfünün ucunu burmaq*** adlandıraraq göstərir ki, bu işi yalnız nəzm əsərlərində etmək mümkündür. Sözləri ***burmaqla*** - məcazi mənalarda işlətməklə onlarda dərin hikmətlər yerləşdirmək olar. «Xəmsə»nin bütün poemalarında insanın özünüdərki və nəfsinin arıdılması yolu ilə kamilləşməsi yolunun təsviri verilib; bir çox Şərq mütəfəkkirləri insanın kamilləşmə yolunun, həmçinin Kainatın və Allahın mistik dərkinin 7 pilləli olması faktını qəbul

---

[1] Гартман Эдуард. Сущность мирового процесса, или философия бессознательного, том I, Москва: Красанд, 2010, с. 253.
[2] Кули-заде З. Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.), ч. II, Баку: Текнур, 2009, с. 13.
[3] Виноградов В.В. О теории художественной речи. Москва: Высшая школа, 1971, с. 8.
[4] Аль-Газали. Книга, избавляющая от заблуждений. http://www.sufizm.ru |Lib|gazali

edirmişlər».[1]

«Yeddi gözəl» əsəri, məqsədi həqiqətə çatmaqdan ibarət olan eşq yolçuluğunun təkamül mexanizmini təsvir etməkdən ibarət olan mistik-fəlsəfi traktatdır. Yeddi gözəldən hər biri – hər gəlin çox qiymətli batini məna daşıyan incidir. Nizami özünə qədər Azərbaycan poeziyasında deyilməmiş mətləbləri qələmə aldığı üçün onları bakirəlik rəmzi olan gəlin adlandırır. Burada ***gəlin*** metaforası koqnitiv funksiya daşımırsa da, əsərin keyfiyyət göstəricisinə (deyilməmiş, yeni fikrə, ideyaya) işarə edən söz kimi çıxış edir. ***Gəlinin zülfü altında***, yəni hər sətir altında olan mənanı açmaqla yeddi xəzinədən hər birinin dürrünü kəşf etmək olar. Gözlə görünən sətirlərsə yalnız bəzəkdir: "*O yeddi sirlər xəzinə xanəsinə//Geniş və uzun bəzəyi vurarkən//Məqsəd bu olub ki, göz o bəzəyin//Genişliyindən həzz alıb asudələnsin.//Gördüyün bu geniş büsata//Göz və qulaqları həvəsləndirmişəm.// Çoxlu dargöz məna və məzmunlar varımdır//Ki, üzlərini dar gözlülərdən örtürlər"*.[2]

Göz və qulaqlarla qəbul olunan ***bu geniş büsat*** əsərin zahiri süjetidir, çoxlu ***dargöz*** məna və məzmunlar gizli səviyyəyə işarə edərək "çətinliklə üzə çıxarıla bilən sözlər" mənasındadır. ***Dar gözlülər*** dedikdə isə müəllif batini mənadan başı çıxmayanları nəzərdə tutur. Bəsirət gözü bağlı olanlar üçün əfsanə görünən 7 hekayə, əslində, əfsanə deyil, cəvahiratla dolu xəzinədir - deməklə Nizami batinə daxil olmaqla qiymətli sirlərə vaqif olmağın mümkünlüyü vurğulayır.*"Hər bir əfsanə ayrılıqda//Bir xəzinəxanadır, əfsanə deyil"*.[3]

«Yeddi gözəl» poemasının batini mənası çox dərin və zəngin mistik süjet üzərində qərarlaşıb. Bu əsərdə Bəhram şahın dünyəvi işlərini, həyat tərzini, təsvir edən müəllif, əslində, mistik eşq yolçusunun – arifin kamillik, mərifət yolu təcrübəsini təsvir edib.

Nizaminin «Yeddi gözəl»də təqdim etdiyi mistik yolçuluq sufilərin mistik təcrübəsi ilə həmahəngdir. Buna görə də «Yeddi gözəl»i başa düşmək üçün sufilərin ilahi biliklərə, sonra da Vəhdətə çatmaq vasitələrindən biri sayılan eşq yolçuluğunun əsas prinsiplərinə qısa nəzər salmaq vacibdir. «Şəriət kökdür, təriqət – budaq, həqiqət isə - meyvə».[4] Eşq yolçuluğu adlandırılan təriqət mərhələsi çoxpilləlidir. Eşq yolçusu bu

[1] Кули-заде З. Теоретические проблемы истории культуры Востока и низамиведение. www.philaw-az.Org, c. 163.
[2] Nizami Gəncəvi. Yeddi gözəl (Filoloji tərcümə). Bakı: Elm, 1983, s. 291.
[3] Yenə orada, s. 291.
[4] Тримингем Дж.С. Суфийские ордены в исламе. Москва: Наука, 1989, с. 134.



mərhələnin əvvəlindən sonuna qədər müxtəlif məqamlardan keçir, hallar yaşayır. Mistik proses çox vacib ruhani prinsiplərdən birini özündə əks etdirir: insan zahiri aləmin kobud vibrasiyalarını dəyişdirmədən ilahi biliklərə yetişə bilməz!

**Filosof- şairlər nəfs haqqında.** Klassik poeziyada istifadə olunan konseptual metaforalardan biri «*div*» sözüdür. O, insanın əxlaqında, mənəviyyatında naqisliklərlə müşayiət olunan alçaq nəfsi ifadə etməklə bərabər bütövlükdə Yer planetində həyatın mahiyyətinin fəlsəfi dərkinə xidmət edir. Onun hələ «Avesta»da işləndiyini görürük. Burada Yer kürəsi div vətəni adlandırılır, Aşa isə işıq deməkdir. Klassik poeziyada *div* sözü eyni mənada işlədilir. *Div* insanın idrak prosesində ən böyük maneə olan mənəviyyat faktorudur və ona qarşı ən güclü vasitə ruhun tərbiyəsi, riyazətdir. Nəfsi təkamülün aşağı mərtəbəsində duran insanların həyatı anlama və dəyərləndirmə mövqelərini göstərmək üçün *büt, bütpərəst*, *bütxanə* metaforaları poeziyanın fəlsəfi dərkində mühüm funksiya daşıyır. *Bütpərəst* sözü həm həqiqi, həm də məcazi mənada "yolunu azmış insan" anlamında poetik sözü fəlsəfi yükləndirir. *Nəfsin gözlərini bir-bir kor elə*mək metaforik ifadəsi nəfsin mərtəbələrinin bi-bir dəf edilməsi ilə pilləli idraki yüksəliş ideyasını daşıyır. *Div* və *büt* sözləri aksioloji funksiya daşıyaraq insan nəfsinin aşağı keyfiyyətlərini ifadə etməklə bərabər (intellektual) katarsis funksiyasına qabil olan metaforalar kimi də dəyərləndirilməlidir. Fransız filosofu Pol Rikör (1913-2005) "deyəndə ki, katarsis tanıma aktında özünün kulminasiyasına çatır, haqlı idi; tanıma müxtəlif spesifikaya malikdir".[1] Belə spesifikalardan biri bədii mətnlərdəki metaforalar (konkret halda *div* və *büt*) vasitəsilə yaranır. Bu metaforalar cəmiyyət həyatı ilə müqayisədə assosiativ obrazlar kimi dinamiklik yarada biləndə tanıma aktı baş verir. Nəfsin rəmzi ifadəsi olan *at* metaforasının ekvivalenti olaraq *gur*, *ahu* (qadın gözəlliyinin rəmzi) kimi metaforik fiqurlarla Nizami insanın tamahını, dünyəvi həzzlərə olan həvəsini, ehtirasını ifadə edir. "Yeddi gözəl" əsərinin sonunda Bəhram şahın ov mərasimində *ahunu və guru öz bədənindən yıxması* ifadəsi məntiqi yolla heç cür anlaşılmır. Ezoterik mənada *ahunu öz bədənindən yıxması*, yəni "özünü ov etməsi" ifadəsi ehtiras və həvəslərdən azad olması ideyasının dərkinə xidmət edir.

Nəfsin alçaq keyfiyyətlərdən qurtulması təsəvvüf poeziyasında ***qəlb aynasının paslardan təmizlənməsi*** kimi təsvir edilir. Fəlsəfi poeziyada güzgü metaforası fəlsəfi klişe kimi çıxış edır. Demək olar ki, bütün sənətkarlar insanın ruhi təkamülü problem ilə bağlı ***güzgü*** metaforasndan

[1] Либиэр А. История эзотерики. http: // www.new lit.ru / ~ liber / 3146-1.html

istifadə ediblər.

***Güzgü*** metaforası qnoseoloji funksiya daşımaqla bərabər ontoloji mahiyyət də kəsb edir.:"Bütöv aləmin strukturu özünün bütün mürəkkəb və rəngarəng hissələri ilə insanda, dəqiq ifadə olunmuş «miniatürdə» ifadə olunur. Bu mənada insan mikrokosmosdur. O, kiçik aləmdir, aləm isə Böyük İnsandır. Dünyanın insanla müqayisə edilməsi sufilikdə metaforik «güzgü» obrazı nümunəsi ilə izah olunur".[1]

Fəlsəfi poeziyada təmizlənmiş, saflaşmış qəlb mənasında ***cam*** sözü də işlədilir. Təmizlənmə prosesinin gedişatını nəzərdə tutan ***güzgü***-dən fərqli olaraq ***cam*** dünyanı, yaradılışı əks etdirməyə tam hazır olan qəlbdir.

Birinci fəslin «Qeyb aləminin dərk olunması haqqında»adlanan üçüncü yarımfəslində mütəfəkkirlərin qeyb aləmi – məna aləmi haqqında söylədikləri araşdırılır. Müxtəlif dövrlərdə yaşamış görkəmli şəxsiyyətlər – Nizami, Nəsimi, Füzuli kainat haqqında, insan haqqında, qeyb aləmi və onun sirləri haqqında gizli biliklərə rasional ağılla yetişməyin qeyri-mümkün olduğunu deyirlər. Onlara görə, məna aləminin sirlərini heç kəs, hətta hikmət sahibləri ağıl vasitəsilə aça bilməz. Füzuli deyir: «*Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən // Ki, açsın hikmət əhli əql üzündən bu müəmmanı*».[2]

Filosof şairlər rasionalla irrasionalı uyğun olaraq ağılla ürək və bunların bir-birinə tənasübü kimi qiymətləndirirlər və deyirlər ki, fikirdə yaranan hər bir şey maddi dünya ilə bağlıdır, mistik aləmə aid olanlarsa ürəkdə yaranır. Burada Mövlana Cəlaləddin Ruminin, Yunus İmrənin də fəlsəfi görüşlərində həmin ideyanın əks olunduğu deyilir. Mövlana belə deyir: «Ağıl bu dünya işlərini dərk etməyə qadirdir, yalnız İlahi sirlər qarşısında acizdir».[3] XX əsrin görkəmli filosofu Fridrix Nitşenin ağılla ürəyin tənasübünü eyni yanaşma ilə açıqladığı göstərilir.. Nizami deyir ki, fikir ağlın məhsulu olduğu üçün qeyb aləmi ilə bağlı olanları orada axtarmaq düzgün deyil. Fikirdə olanlar, yəni rasional düşüncə yalnız maddi dünya ilə – surət aləmi ilə bağlıdır. Qeybə aid olanların isə fikirdə (ağılda) yeri yoxdur. Fikir ağılda yaranır, ağıl rasionaldır, rasional ağıl irrasionalın bazasıdır, əsasıdır

Ağılla ürəyin (canın) vəhdəti mistik aləmi – məna aləmini tədqiq edən və dərk etməyə qabil olan irrasional idrakdır. Ruhi təkamül keçməyən,

[1] Азимов К. Проблема человека в религиозно-философских доктринах Зороастризма и Ислама. Баку: Леттерпресс, 2009, с. 228.
[2] Füzuli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, s. 229.
[3] Rüstəmov Y. Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti, 2002, s.159.



imanı olmayan insanın ağlı ilə canı bir-birini tanımır. Bu cür ağıl, Füzulinin dediyi kimi, şöhrət və çörək dalınca qaçır.

Ağlı sakitləşdirməklə irrasional bilik qazanma metodlarından olan zikr fenomeni haqqında bu yarımfəsildə fikirlər söylənilir. Qurani-Kərimdə zikrin hikmətinə verilən qiyməti görürük. Zikr qeyb aləminə keçidin qapısıdır. Bu yarımfəsildə qeybin sirlərinə yiyələnməyin irrasional idrakla mümkün olduğu vurğulanır.

Bu fəsildə əldə etdiklərimizi aşağıdakı kimi yekunlaşdıra bilərik:

1. Ezoterik biliklər mistik təcrübədə əldə edilən irrasional bilikdir və o, rasional biliyin ziddinə getmir, əksinə onu tamamlayır, kamilləşdirir.

2. Ezoterik dünyagörüş bədii mətnlərin (burada poetik nümunələr nəzərdə tutulur) gizli (ezoterik) laylarında əks olunub. Azərbaycan fəlsəfi poeziyasında ezoterik dünyagörüş rəmzi, metaforik formada təqdim edilib.

3. Bədii mətnlərin batini mahiyyətinin fəlsəfi dərki metaforaların dərin semantik strukturlarının əldə olunması, koqnitiv funksiyalarının anlaşılması yolu ilə mümkündür.

4.Koqnitiv metaforalar dünyagörüşü funksiyası daşıması baxımından bir sıra hallarda etnik-məhəlli ifadə çərçivələrindən kənara çıxır.

5. Klassik ədəbiyyatda iri həcmli əsərlər – epik poemalar ezoterik dünyagörüşün ifadə edilməsi üçün əlverişli «qəlibdir». «Qəlib» olan zahiri süjetlə müəllifin əsas məqsədi olan batini süjetin formal cəhətdən başqa heç bir daxili bağlantısı, məna əlaqəsi yoxdur, lakin simvolik müstəvidə süjetlər bir-birilə əlaqələnir, bu da əsərin fəlsəfi dərk prosesinə yardım edır.

5. Batini müstəvidə yerləşdirilən süjet insanın mənəvi-ruhi yüksəliş yolunu göstərən mistik-fəlsəfi traktatın mahiyyəti kimi dəyərləndirilə bilər.

Dissertasiyanın ikinci fəsli – «**İrrasional idrak mistik eşq yolçuluğu kontekstində**» təsəvvüf fəlsəfəsinin ana xəttini təşkil edən təriqət yolunun – mistik eşq yolçuluğunun irrasional idrak fenomeninin mərhələləri olaraq araşdırılmasına həsr olunub. İkinci fəsil dörd yarım-fəsildən və səkkiz benddən ibarətdir. Sufi eşq yolçuluğu adlanan ezoterik təcrübənin əsas qayəsi azadlıq əldə etmək olduğu üçün ikinci fəslin birinci yarımfəslində «Azadlıq yolu» anlayışının fəlsəfi mənalandırılmasına cəhd göstərmişik. Bu, irrasional idrakın mərhələli inkişaf yoludur ki, hər mər-hələdə azadlıq fenomeninin dərkinin yeni səviyyələri əldə edilir, azadlığın əldə edilmə səviyyəsi eşq hissinin dərinliyi ilə «ölçülür»: «Bütün idrak prosesi, idrakın inkişafı özünəməxsus eşq məktəbidir». Belə prosesdə insan ruhunun ilahi keyfiyyətlərini bərpa edir, fiziki ilə ruhani arasındakı rabitə möhkəmlənir, harmonik vahidlik əldə olunur, son mərhələdə hər ikisi – insanın özünü fiziki və ruhi varlıq kimi dərki tamamlanaraq bir nöqtədə rezonansa girir. İrrasional idrakın yüksək səviyyəsi ruhun azadlığıdır. Bir

çox mütəfəkkir şairlər, filosoflar belə səviyyəni ağıl kateqoriyası üçün əlçatmaz olduğunu deyirlər. Yalnız sufilərin deyil, bütün mistiklərin təcrübələri ilahi enerjiyə köklənmək, onunla həmahəng ritmə daxil olmaq kimi azadlıq əldəetmə təcrübəsindən ibarətdir. (yoqa, xüsusən, Sahadca-yoqa təcrübəsi və s.). Belə mistik təcrübənin təkbaşına, müəllimsiz keçirməyin qeyri-mümkünlüyü konsepsiyası yolu rəhbərlə keçməyin zərurətini yaradır.

İkinci fəslin ikinci yarımfəsli həmin adla («Yolu rəhbərlə keçməyin zərurəti») işlənib. Təsəvvüf fəlsəfəsində idrak prosesinin silsilə olaraq üç pilləsi qeyd edilir: şəriət, təriqət və həqiqət. Şəriətdə rasional biliklər, subyekt – obyekt münasibətlərinin daha çox zahiri və etik normaları, kamillik axtaran insanın gözəl əxlaq və davranışını tənzimləyən qanunlar və prinsiplər öyrənilirsə, təriqətdə irrasional idraka yetişməyin praktik metodu kimi insan – eşq yolçusu özünün mistik təcrübəsini yaşayır. Belə təcrübə irrasional biliklərin qazanılması metodu kimi unikal və universaldır. İdrak prosesinin şəriət və təriqət pillələri «seyr ila-Llah» - «Allaha doğru səyahət» adlanır. Həqiqət (yaxud mərifət) adlanan son pillə isə «seyr fi-Llah» - «Allahın içərisində səyahət»dir. Bu yarımfəsildə Nizaminin, Nəsiminin və Füzulinin mürşidlərə önəmli yer verməri və özlərinin müəllimləri haqqında fikirləri də təqdim olunur.

İkinci fəslin üçüncü yarımfəslində («Mistik qavrama mərkəzləri– sufi məqamları») bu fəslin əsas ideyası olan irrasional idrakın 7 əsas mərhələsi və onların insanın fiziologiyası, psixo-somatikası ilə əlaqəsi, eyni zamanda, Uzaq Şərq və Qərb mistik-fəlsəfi fikrində verilmə ənənələri ilə paralelliyi araşdırılır. Göstərilir ki, irrasional idrakın 7 əsas mərhələsi təsəvvüfdə 7 məqam adı ilə tanınır. Sufi mistiklərinin radikal empirik (mistik) təcrübələrindən hasil olan 7 məqamın təsviri irrasional təfəkkürün məhsulu olduğu üçün simvolik dillə təqdim olunur. 7 məqam yaşantıları ruhun Allahı tanımaya istiqamətlənmə yolunda baş verir. Məkan və zaman məhdudiyyətlərinin fövqündə yaşanılan və idrakın genişlənməsi ilə müşayiət olunan mistik təcrübədə mikrokosmosla makrokosmosun «ittifaqı» baş verir. Ezoterik ədəbiyyatında irrasional idrakın 7 mərhələsi 7 qəsr, vadi, tağ və s. rəmzi obrazlarla verilir. Bu yarımfəsildə mərhələli irrasional idrak haqqında konsepsiyanı bədii qəlibə salan sufi müəlliflərindən Əbu'l-Hüseyn Nurinin «Məqamət əl-qülub», Fərid əd-Din Əttarın «Məntiq ət-təyr», Qərb mistiklərindən Avilli Terezanın «Daxili qəsr» əsərləri haqqında məlumat verilir.

Azərbaycan fəlsəfi fikir tarixində irrasional idrak yolunun 7 mərhələsinin geniş və sistemli təsvirini Nizami Gəncəvinin «Yeddi gözəl» əsərində, Məhəmməd Füzulinin «Həft cam»ında və çox yığcam formada Nəsiminin «Şənbə günü mən uğradım ol sərvi-rəvanə» qəzəlində görə bi-



lərik. Xristianlığın, induizmin, daosizmin, buddizmin, iudaizmin mistik ənənələrində də yeddi əsas məqamın mövcud olduğundan, Uzaq Şərqin dini-mistik ənənələrində bunun açıq mətnlə, xristian və iudaist dini-mistik ənənələrində dini-mistik və bədii simvolika ilə, sufilikdə bədii-mistik simvolika ilə verildiyindən danışılır. Formalar müxtəlif olsa da, tədqiqat obyekti eynidir – İnsan və onun mənəvi – ruhi transformasiyası, kamilləşməsi prosesi.

Uzun tarixi yol keçərək bizə gəlib çatmış yeddi məqamın təsvirini verən əsərlərin hikməti nədədir? Bu yarımfəsildə yeddi məqamın insanın mistik qavrama mərkəzi olan, kainatla energetik mübadilə yaradan yeddi çakra haqqında geniş və sistemli məlumat təqdim olunur. Sufi mistiki Nəcm əd-din (əl)–Kübra (1145-1220) belə enerji mərkəzlərini lətaiflər adlandırıb.[1] Çakraların, yaxud lətif çarxların (bu, bizim təqdim etdiyimiz termindir) insanın onurğa sütununun əsasından başlayaraq başın əmgəyinə qədərki məsafədə onurğa boyu yerləşdiyi, irrasional idrak prosesinin insanın sağlamlığını, mənəvi-ruhi transformasiyasını tənzimləyən lətif çarxların – enerji mərkəzlərinin tam açılışı olması, lətif çarxların açılışının onlardan keçəcək kosmik enerji olan Kundalini ilə bağlılığı haqqında danışılır. (Sanskrit termini olan Kundalini «ilan kimi qıvrılmış» deməkdir.) Göstərilir ki, sakrum sümüyündə (onurğanın əsasında) «yatmış» Kundalini oyanarsa, sufilərin eşq yolçuluğu adlandırdıqları böyük transformasiya prosesi olan irrasional idrak prosesi başlayır. Hər məqamı – enerji mərkəzini keçdikcə, Kundalini bir mərtəbə qalxdıqca, idrakın yeni səviyyəsi əldə olunur. «Yeddi gözəl» əsərində bu proses Bəhramın Gurun hər gecə bir çadıra girməsi, «Həft cam» əsərində isə hər camın keyfiyyətinin təsvir edilməsi kimi alleqorik formada, rəmzi dillə təqdim edilir.

Yarımfəsildə müasir dövrdə insanın fiziki sağlamlığının lətif çarxlarla əlaqəli olduğunu göstərən tibb alimlərinin əsərlərinə müraciət olunub. «Yeddi gözəl» və «Həft cam» əsərlərində 7 mərhələ – 7 lətif çarx haqqındakı ezoterik (gizli) biliklər sistemli şəkildə, eyni zamanda, Uzaq Şərq mistik ənənəsi ilə paralel olaraq araşdırılır, oxşar və fərqli spesifika axtarılır. Bu yarımfəsildə yeddi bölmə vermişik. Hər bölmədə bir lətif çarx irrasional bilik əldə etmənin bir mərhələsi – bir sufi məqamı kimi rasional və irrasional aspektlərin qovşağında araşdırılır: lətif çarxın yeri, daxili orqanlarla əlaqəsi, musiqi notu, rəngi, ünsürü və Günəş sistemindəki planetlərdən biri ilə bağlılığı kimi məsələlər müasir tibb elmi müstəvisində təqdim edilərək Azərbaycan fəlsəfi poeziya kontekstində araşdırılır. Bu

[1] Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург: ДИЛЯ, 2004, с. 269.

yarımfəsildə sonuncu – 7-ci məqamın təsvirinə xüsusi diqqət verilir. Çünki bu, seyr ila-Llah yolunun axır dayanacağı, irrasional idrakın bu silsilədə son mərhələsidir. O, iki fazada baş verir: fəna fi-Llah (Allahın içində ərimə) və bəqa fi-Llah (Allahın içərisində ədəbi var olma). Uzaq Şərq mistik ənənələrində 7-ci mərhələ «azadlıq əldə etmə, xilas olma» mənasını ifadə edən mokşa, mukti, kayvalya, nirvana və s. adlanır. Qərb ənənələrində isə bu mərhələyə «mistik nikah» deyirlər. Fəna məqamı bənövşəyi enerji dalğaları ilə, bəqa halı isə ağ rəngdə enerji ilə müşayiət olunur. Nizami Bəhram Gurun 7-ci məqamını belə təsvir edir: «O (Bəhram – M.A.) sərvboylu altmışa çatarkən // Bənövşəsi üstündə (ağ) yasəmən çiçəklədi, // Sədaqətlə Allahpərəst oldu, // Özünə pərəstiş etməkdən əl çəkdi» (s. 282). İnduizmdə Kundalini enerjisinin 7-ci çakraya daxil olması müdriklik simvolu olan minləçəkli lotos gülünün açılması prosesi kimi təsvir edilir.

Kundalini enerjisinin 7-ci çakraya daxil olması, yəni irrasional idrakın 7-ci mərhələsinin əldə edilməsi başını qaldırmış ilan təsvirində rəmzləşdirilib. Qədim dövrlərdə təbabət sahəsində yalnız qabiliyyətli, müdrik insanlar çalışdıqlarına görə təbabətin simvolik rəsmində Kundalini enerjisinin rəmzi təsviri verilir.Bu bölmədə Uzaq Şərq və İslam Şərqi filosoflarının və mistiklərinin (N.Tusi, Şihabəddin Sührəverdi, Svami Vivekananda, Həzrət İnayət xan və b.) fikirlərinə istinadən belə qənaətə gəlmişik ki, reallığın gizli tərəflərinin insan üçün aşkar edilməsi, irrasional idrakın yüksək mərhələsinin əldə olunması prosesində əsas metod kimi praktik mistisizmin rolu çox böyükdür. Onun əsas nailiyyəti kimi 7-ci məqamın əldə olunduğu 7-ci energetik mərkəzin (Saxasrara çakranın)* açılması zaman və məkan məhdudiyyətlərinin silinməsi prosesini başa çatdırır; o, sırf intuisiya çakrasıdır; o, insanın, Ali Şüurun informasiya məkanından (Lövhi-Məhfuzdan) – (irrasional) biliklər almasına kömək edir.

Bibliyada, Tövratda çakralar haqqında metaforik və alleqorik formada danışılır. İudaizmdə çakralar yeddi şamdanlı çilçıraq (Mandorla – M.A.) kimi, xristianlıqda isə mələklərin qalxıb endikləri nərdivan obrazı

* Dünya ezoterikasında energetik mərkəzlər (mistik qavrama mərkəzləri) sanskrit terminologiyası ilə adlandırılır. Onlar haqqında qısa informasiya belədir: 1. Muladxara (kök, dayaq) onurğanın əsasında yerləşir; 2. Svadxistana (xüsusi, özəl, öz-özünü qoruyan) göbəkdən 4-6 sm aşağı; 3. Manipura (cəvahirat şəhərinin dairəsi) günəş kələfində yerləşir; 4. Anaxata (sınmayan, dözümlü) döş qəfəsinin mərkəzində yerləşir; 5. Vişudxa (təmiz) boğaz nahiyəsində yerləşir; 6. Acna (üçüncü göz) alın nahiyəsi; 7. Saxasrara (min milli çarx) kəllə sümüyünün üstü, əmgəkdən 1 sm yuxarı.



vasitəsilə təqdim edilir.[1] Kabbalada istifadə olunan "sefirot insanın bədənində yerləşmiş ilahi keyfiyyətlərin mərkəzləridir. Onların sayı ondur, yerləşmələri və keyfiyyətləri çakralarla tam eynidir".[2]

İkinci fəslin dördüncü yarımfəsli «Klassiklərin «diri ikən öl ki, yenidən diriləsən» sentensiyasının fəlsəfi şərhi» adlanır. Burada deyilir ki, fəna məqamında mistik aşiqin özünün fənasını yaşaması «diri ikən ölmək» kimi ekspressiv-psixoloji vəziyyətin əldə olunmasıdır, bəqa halı isə əvvəlkindən fərqli olan, ilahi keyfiyyətlərini bərpa etmiş yeni insanın doğulması deməkdir. Bu yarımfəsildə Nizaminin, Nəsiminin və Füzulinin, həmçinin Mövlana C.Ruminin, Yunus İmrənin bu fenomenlə bağlı poetik formada fikirləri araşdırılır, «fani varlıq» və «baqi yoxluq» paralelliyinin fəlsəfi şərhi verilir. Belə ki, fani varlıq gerçəkliyin görünən, zahiri tərəfi, baqi yoxluq isə gerçəkliyin batini tərəfi kimi qiymətləndirilir. Birincisi rasionalla, ikincisi irrasionalla dərk olunur. Bəqada insan idrakının yüksək səviyyəsinə çatması və irrasional biliklər əldə etmə bacarığı yüksək yaradıcılıq potensialının açılması, kəşf halının yaşanması və s. ilə müşayiət olunur. Bu zaman ali həqiqət səslərdə, notlarda, rənglərdə maddiləşərək Universal Vahidin müxtəlif aspektlərdən təzahürünün ifadə forması kimi çıxış edir. Bu hissədə ezoterik biliklər sırasından olan və müasir təbabətdə çox az tətbiq edilən musiqi vasitəsilə diaqnostika və terapiya məsələlərinin «İqbalnamə»də verilməsi faktına diqqət yetirilir. Nizaminin fəlsəfi görüşlərinin ən dərin səviyyələrinə dəlalət edən hər yeni fakt, eyni zamanda, XII əsrdə Azərbaycan fəlsəfi fikrinin özünün ən yüksək mərhələsini yaşadığını söyləməyə əsas verir.

Doğulmayan, başlanğıcı olmayan, yaradılmayan təyinləri ilə müəyyənləşdirilən[3] nirvanaya çatma əxlaqi-etik normalara ciddi riayətlə və hissi təcrübənin fövqündə baş verən introspeksiyada əldə olunur. Tantrik Buddizmdə Tanrı ilə ittifaq anlayışı yoxdur. Ona görə də nirvananın reallığı transsendent boşluqdur.[4] Transsendent boşluq sufilikdəki fənanın heçliyinin yaşantısına uyğundur. Bəqada insan özünün əsil, ilahi mahiyyətini reallaşdırır, o, ilahi aləm üçün doğulur, bu, insanın ikinci doğuluşu hesab olunur. Fənadan bəqaya keçid əbədi həyata qovuşma kimi xarakterizə olunur. Bunu Qərb ezoterikasında mistik nikah adlandırırlar, Şərq mistik ədəbiyyatında müxtəlif metaforik ifadələrlə – ***sevgilinin üzünü görmək***,

[1] www.e-reading-lib.com
[2] Yenə orada.
[3] Садгуру Шивайя Субрамуниясвами. Танец с Шивой. Современный катехизис индуизма. Перев. с англ. Москва: ИД «Гелиос», 2001, с. 523.
[4] Yenə orada.

***canani tapmaq, damlanın ümmana qovuşması, ikiliyin birliyə yetməsi, vüsal badəsinin başa çəkilməsi*** və s. kimi təsvir edirlər.

***diriykən ölüb yenidən dirilmək*** ifadəsini böyük cihad hesab olunan introspektiv mistik yolçuluğun qısa sentensiyası kimi qəbul etmək olar.

Dördüncü yarımfəslin bir bölməsi var: «Vətən anlayışının fəlsəfi şərhi». Burada göstərilir ki, mistik aşiqin 7-ci məqamdakı Vəhdət yaşantısı əsil «vətən»də baş verir. Vətən fenomeninin dərki irrasional idrakın yüksək mərhələsində əldə olunan halla bağlıdır. Bütün mistik yaşantı keçirənlər üçün fiziki dünya qürbətdir. Füzuli belə deyir: «*Yar kuyindən cida heyranam öz əhvalıma // Bu bəlalı qürbətə doğma diyardan düşmüşəm*».[1] İnsanın doğulması təsəvvüfdə ilahi dərgahdan ayrılıb mülk aləminə düşməsi kimi təsvir olunur ki, bu da uyğun olaraq ***vətən*** və ***qürbət*** metaforaları ilə ifadə edilir. "Ancaq bədən, yəni kəsrət aləmi ondan ötrü qəriblik diyarı, hicran məkanıdır. Əslində ruh bədən qəfəsində həbs olunur. Öz əslindən ayrılmağın möhnət və acısını, ayrılıq əzabını yaşamalı olur. Maddi dünyada bədənin toruna, tələsinə düşür".[2] Hər bir insanın təhtəlşüurunda vətən həsrəti «yatır». Bu fəsildə aşağıdakı nəticələrə gəlmişik:

1. Haqqın dərgahına çatmaq üçün insan cihad yolu adlanan eşq yolçuluğunun yeddi əsas məqamından keçməlidir. Bu dərgah makrokosmos olsa da, qapısı insanın öz daxilində – mikrokosmosun dərinliyində - qeyri-şüurisində yerləşib və ona irrasional idrakın hüdudsuz genişliyində çatmaq olar. Onun metodu intropspektiv təcrübədir.

3. İdrakın ali səviyyəsinə (supramental idrak, irrasionalın mümkün zirvə nöqtəsi, yaxud bəqa halı) yetişən geriyə – ilkin vəziyyətinə qayıtmalıdır. Bu, bütün təlimlərdə – Həm Şərq, həm də Qərb ezoterik təlimlərində vacib amildir. Füzulinin «ölü ikən dirilib aləmə gəldim təkrar» misralı qəzəlində, Nizaminin və Nəsiminin eyni fikrin səsləndiyi əsərlərində həmin ideya özünü göstərir. Geriyə qayıtma tam yeni keyfiyyətdə baş verir, yüksək səviyyədə əldə edilən keyfiyyətlər aşağı nöqtəyə qayıtdıqdan sonrakı həyatda tətbiq olunur, o vaxta qədər ki, bütün işlər sahmana salınmış olsun, karmik düyünlər açılsın, bütün «borclar qaytarılsın». Yalnız bu yolla Vətənə – Əbədiyyətə yüngül və sərbəst keçid mümkündür.

Dissertasiyanın III fəslində («**Kosmoqoniya məsələləri fəlsəfi poeziya kontekstində**») göstərilir ki, kosmoqoniya məsələlərinin fəlsəfi poeziya kontekstində araşdırılması fəlsəfə tarixində az işlənmiş istiqamətdir və o, fəlsəfənin predmetinin sərhədlərini genişləndirir. Astrofizika, astronomiya, fizika elmlərinin son yüzillikdə əldə etdikləri nəticələrin

---

[1] Füzuli. Əsərləri: 5 cilddə, I c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1958, s. 328.
[2] Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm, Bakı: 2007, s. 40.



bəziləri ezoterik ədəbiyyatda metaforik dillə təsvir edilmiş informasiyaları təsdiqləyir. Bu fəsil dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə («Yaradılış haqqında») kosmoqoniya məsələləri ilə bağlı, kainatla bağlı biliklərin əldə edilməsi yolları (ilham, kəşf) haqqında, İslam Şərqinin görkəmli mütəfəkkirləri İbn əl-Ərəbinin, Nizaminin, Füzulinin, Nəsiminin dünyagörüşlərinə istinadən fikir söylənilir. Kainatın ilahi mənşəyinin reallığı haqqında, «Böyük partlayış» nəzəriyyəsi haqqında məlumatların bədii simvolik təsvirini fəlsəfi poeziyada görmək olar. Nəsimi kainatın zühura gəlməsindən əvvəlki vəziyyətini – metafizik yoxluğu belə təsvir edir: «*Ol gün ki yoxdu cismimiz, vardı ədəmdə nəqşimiz, // Eşqinlə bir munis idi şövqü məhəbbətlə bu can*»,[1] Füzulidə də həmin ideya qabardılır: «*Dünyaya gəlmədən qəmi-ləli-ləbinlə biz // Yoxluqda ömrlər uzunu bahəm olmuşuq*».[2] Metafizik yoxluqda bütün yaradılış Mütləq Varlığın Zatında mövcud idi, - Nizaminin ontoloji görüşləri belədir. O deyir: «*Kainat Sənin bayrağın altında oturmuşdur.// Bizim varlığımız Səndən, Səninsə varlığın öz zatındandır*».(X.v.Ş.,20) Metafizik yoxluğun varlıq aləminə keçməsinin bədii-simvolik təsvirinə fəlsəfi poeziyada kifayət qədər rast gəlmək olar. Surət aləmində təzahür olmazdan əvvəl abstrakt mövcudluqda cəm olan məxluqatın vəziyyətin dəyərini klassik şairlər ***aşiqlik halı*** kimi qiymətləndirilər. Ona görə də klassik ədəbiyyatda metafizik yoxluğun bədii ifadə formalarından biri ***eşq vadisi*** ifadəsidir. Nəsiminin dilində ***bəzmi-əzəl***, Füzulidə ***vadiyi-eşq*** metafizik yoxluq anlayışını bildirir.

*Cuş qıldı* əql küll, qəldi vücuda kainat,*
*Kafü nun əmrindən oldu dü cahan yekbar məst.*

Əqli-Küllün cuş qılmasından - qaynayıb coşmasından kainat yarandı, – deməklə Nəsimi kainatın yaranmasında hansısa bir partlayış aktına işarə edir.

Üçüncü fəslin «Vahid həyat haqqında» adlanan ikinci yarımfəslində Nizaminin, Nəsiminin və Füzulinin vahid həyat haqqında fəlsəfi görüşləri araşdırılır.

İnsan beyni potensial məhdud qavrama qabiliyyətinə malik olduğuna görə aləmi fraqmentar dərk edir, Vahid Həyatı insan özünün beyin «süzgəcindən» keçirərək saysız-hesabsız miqdarda tərkib hissələrinə bölür.[3] Mövcud olanlar, əslində, Vahid Həyat adlandırılan sonsuz Ümmanın tərkibidir, möhtəviyyatıdır. Ümumvəhdət fəlsəfəsinin əsasında duran Univer-

---

[1] Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, s. 413.
[2] Füzuli. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1988, s. 352.
* cuş qılmaq – qaynamaq, coşmaq
[3] Хулуси Ахмед. Аллах. Баку: Адильоглы, 2006, с. 57.

sal Enerji konsepsiyasına görə, mövcud olan hər şey enerji səviyyəsində bir-birilə bağlıdır, bir-birinə nüfuz edir. Bu, Vahid Həyatın batini, ezoterik strukturudur və bu konsepsiya müəyyən zamana qədər irrasional idrakla dərk olunan ezoterik bilik hesab olunurdu. İtaliyalı fizik Qabriyel Venesianovun 1970-ci ildə kəşf etdiyi «Kvant simlər nəzəriyyəsi» Universal Enerji konsepsiyasını elmi cəhətdən, rasional aspektdən təsdiqlədi. Fəlsəfi poeziyada kvant simlərinin vəhdəti metafora diliylə təqdim edilir – ***silsilə yar zülfü, hörüklər, saç*** və s. Nəsimi belə deyir: «*Vəhdətin sirri, qırılmaz silsilə yar zülfüdür,// Mən bu zülfə bağlıyam, etməz rəha*, xoşdur mənə*».[1] Bu beytdə Nəsiminin ontoloji görüşləri ifadə olunub. Ezoterik dünyagörüş sahiblərinin ontoloji görüşləri varoluşun dərin qatlarına, müasir terminologiya ilə deyilsə, kvant səviyyəsinə nüfuz edib. İbn əl-Ərəbi yazır: ”Bütün mövcudatda elə bir varlıq, elə bir hissəcik yoxdur ki, səninlə (Allahla – M.A.) onlardan sənə və səndən onlara uzanan incə bağlarla (rəqaiq) birləşməmiş olsun”.[2] “***Zülf*** və ***sima*** ilahi atributların - emanasiya aləminin işarələridir. Sufi təfəkkürü kontekstində bu işarələr ali mövcudluğun qüdrət və gözəlliyinin təcəllasına işarə edir”.[3] İşraqilərin emanasiya doktrinası da universal enerji konsepsiyasının ifadəsidir.

Üçüncü fəslin üçüncü yarımfəsli «”Nöqtə”nin sakral anlamı» adlanır.Burada fəlsəfi poeziyada rast gəlinən «nöqtə» rəmzinin fəlsəfi şərhi verilir. Antik dövr filosoflarının təlimlərində nöqtə başlangıc pozisiya hesab olunur.”Belə ki, nöqtə - vahiddir, iki nöqtədən düz xətt alınır, üç nöqtə - artıq müstəvidir”.[4]Nizami Gəncəvinin ontoloji görüşlərində nöqtədən aləmlərin intişarı məsələsi aktuallıq kəsb edir(X.vəŞ.,315)..Nəsimi nöqtənin sirrini tövhid məqamında anlayır: ”*Tövhid içində nöqteyi-əsrarı bulmuşam,//Sahibi-nəzər gərək ki, bu halə xəbir ola*”.Ezoterik ədəbiyyatda nöqtə İlahi Substansiyanın – Mütləq Varlığın rəmzi, həmçinin abstrakt mövcudluqdan potensial mövcudluğa differensiyasiyanın simvoludur,o, İlahi Zatın batindən xaricə intişarının ilkin vəziyyətini qeyd edir[5]. XV əsrdə yaranmış nöqtəvilər cərəyanına görə, bütün sirlər nöqtədə yerləşir, nöqtə öz içində sonsuzluğu daşıyır, nöqtə mərkəz olmaqla ətrafında çəkilən dairə zamanı, yaradılışı göstərir.

* rəha - qurtulma.

1 Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, s. 414.

2 Ибн ал-Араби. Мекканские откровения. Санкт-Петербург: Петербургское востоковедение, 1995, с. 37.

3 Азимов К.Азербайджанские мыслители о человеке.Баку:Язычы,1986,с154

4 Əlizadə A.Pifaqorçular və yeni pifaqorçuluq.alizadeh.narod.ru

5 Блаватская Е.Тайная доктрина.т.1,Харьков:Эксмо-Пресс,2001,942с.



Mütəfəkkirlərimizin ontoloji görüşlərinə görə, Allah aləmləri yaratmamışdan və xəlq olunanlar cismə gəlməmişdən əvvəl bir nöqtədə idilər Füzuli deyir:«*Nöqteyi-xalinə bağlanmış idi canü könül, // Gəzmədən daireyi-dövrdə pərgar hənuz».[1]*Şəbüstərinin “Gülşəni-raz” əsərində ***xal*** antropoloji metaforası nöqtə rəmzinin məna yükünü daşıyır. Müasir dövrdə kainatın nöqtənin partlaması nəticəsində yarandığını iddia edən mütəxəssislər Atom tədqiqatlarının Avropa təşkilatında (İsveçrədə) elementar hissəciklərin tezləşdiricisi olan Böyük adron kollayderi üzərində təcrübə aparırlar.Alimlər hesab edirlər ki, hissəciklərin (sürətləndirilmiş protonların) kollayderdə toqquşmasından elmə məlum olan və məlum olmayan minlərlə yeni hissəciklərin əmələ gəlməsi ilə müşayiət olunan Böyük Partlayışın mənzərəsi yaranacaq. Təcrübənin əsasında Eynşteynin enerjinin kütləyə çevrilməsi nəzəriyyəsi durur. Kollayder ideyasının özü elm aləmində kainatın bir nöqtədən partlayış nəticəsində yaranması nəzəriyyəsinə nə dərəcədə ciddi münasibət göstərildiyini sübut edir.

Yarımfəsildə nöqtə ideyasının rəngkarlıqda tətbiq olunması, XV əsrdə yaranmış suprematizm cərəyanında onun stilizə olunmuş formalarından (kvadrat, xaç və dairə) istifadə edilməsindən danışılır.

Üçüncü fəslin beşinci yarımfəsli «Paralel aləmlər haqqında» adlanır. Elmi ədəbiyyatda çoxölçülü və ya n-ölçülü məkanlar adlandırılan paralel aləmlər haqqında Azərbaycan fəlsəfi poeziyasında rast gəldiyimiz məlumatlar böyük maraq kəsb edir. Aləmlərin mövcudluğunu təsdiqləyən ilk yazılı mənbə Uzaq Şərqdə fəlsəfi-dini mədəniyyətində «Veda»dır, İslam Şərqində isə «Quran»dır. Sonsuz aləmlərin mövcudluğuna münasibət bütün dini-fəlsəfi cərəyanlarda, qədim xalqların inanclarında, bir çox filosofların əsərlərində var. Kamill Flammarion «Məskunlaşmış aləmlərin çoxsaylılığı» elmi-fəlsəfi əsərində. yazır: «Aləmlərin çoxsaylı olması doktrinası nəinki elmi tədqiqata cəlb edilə bilər, həm də bu, bütün astronomik biliklərin bilavasitə nəticəsi olaraq kainat fəlsəfəsinin mərkəzidir».[2] 18 min aləmdən danışan Nəsimi belə deyir: «*Çün Nəsimi on səkkiz min aləmin məqsududur, // Kim bu dövrü bilmədi, sür ta çıxa dəvvarədən*». Görünür, dünya iyerarxik struktura malikdir və sanki “matryoşka” prinsipi ilə qurulmuşdur. Və hansısa bir qatı tam öyrənməyə yaxın olduğumuz bir vaxtda içindən yeni bir qat açılır. Bu yeni situasiyanı da əhatə edə bilmək üçün yeni nəzəriyyələr tələb olunur. Bəli, elm insanın bütövlükdə dünyanı ehtiva etmək iddiasını

1 Füzuli. Əsərləri: 5 cilddə, I c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1958, c.114.

2 Фламмарион К. Многочисленность обитаемых миров. Санкт-Петербург: Издание А.П.Коломнина, 1896, с. 12.

(və ya ehtiyacını) təmin etmək üçün yetərli deyil"[1]. Reallığın digər səviyyələrini öyrənmədən insan həyatı haqqında, dünya haqqında tam, dolğun biliklər əldə etmək olmaz.

Bu yarımfəsildə həm dini ədəbiyyatda, həm də fəlsəfi poeziyada çox rast gəldiyimiz. «Qorunan yazı» mənasını verən «Lövhi-məhfuz» məfhumu ilə bağlı fikir söylənilir.Bu anlayış Ərşdə yerləşən qatı bildirir.[2] İnduizmdə buna «Akaşa» deyirlər, hərfi mənası səma, açıq və azad fəza deməkdir.[3] Akaşanın ezoterik mənası belədir: «Bütün hadisələrin yazıldığı və bəsirət sahiblərinin oxuya bildikləri, bütün aktual və potensial mövcudiyyəti özündə ehtiva edən əql, şüurüstü təbəqə. Bu transsendent akaşaya psixiki daxil olmaq yolu ilə kosmik biliklər əldə etmək və keçmişi, indini və gələcəyi – bütün zaman silsiləsini öyrənmək olar. Fəza, akaşa bu konsepsiyada görünməz enerji və əqllə doldurulmuş pozitiv substansiyadır (fəzanın vakuum olmasını, orada heç bir şeyin olmamasını təsdiqləyən Qərb konsepsiyasına əks olaraq). Advaytaraqa – upanişad (2.1.17) akaşanın yoqa vasitəsilə dərk edilə biləcək beş səviyyəsini təsvir edir. Əl-Ərəbi «Məkkə vəhyləri»ndə Ərşin beş hissədən ibarət olduğunu deyir. Ərş Ərşi-Kəbir (böyük), Akaşa da maxa (böyük) adlanır ki, bura Nəfsi-Küll, yaxud da Lövhi-məhfuzdur. «Lövhi-məhfuzdan müqəddəs kitablar göndərilib, o özü bütün kainatın qabaqcadan yazıldığı ilk kitabdır».[4]

Klassiklər öz yaradıcılığında kainatın bütün sirlərinin Lövhi – məhfuzda yazıldığı haqda yetərincə məlumat verirlər. Füzuli deyir:

*Mədədi-rə'yi zəmriylə gəlür fi'lə* müdam,*
*Lövhi qüdrətdə qaza hər nə ki, inşa eylər.* [5]

İzah: Qüdrət Lövhəsində yaratdıqları hər şey
Özünün iradəsi və yardımı ilə hərəkətə gəlir.

Azərbaycan fəlsəfi poeziyasında kosmoqoniya məsələlərini araşdırarkən gəldiyimiz nəticələr ondan ibarət oldu ki, fəlsəfi poeziya unikal və universal informasiya mənbəyidir; burada verilən irrasional biliklər zaman etibarilə rasional elmi bilikləri qabaqlayır və onlar bir çox elm sahələri üçün (fizika, astrofizika, astronomiya üçün) ciddi elmi tapıntı sayıla bilər.

[1] Xəlilov S.Elm haqqında elm.Bakı:Azərbaycan Universiteti,2011,s.293.
[2] Ибн ал-Араби. Мекканские откровения. Санкт-Петербург: Петербургское востоковедение, 1995, с. 346.
[3] Садгуру Шивайя Субрамуниясвами. Танец с Шивой. Современный катехизис индуизма. Перев. с англ. Москва: ИД «Гелиос», 2001, с. 631.
[4] Ибн ал-Араби. Мекканские откровения, с. 110.
* fi'l (fe'l) – hərəkət.
[5] Füzuli. Əsərləri: 5 cilddə, IV c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961, s. 142.



Azərbaycan fəlsəfi poeziyasında kosmoqoniya məsələlərini araşdırarkən əldə etdiklərimiz aşağıdakı qənaətə gəlməyə imkan verir:

1. Fəlsəfi poeziyamız universal və unikal informasiya mənbəyidir, belə ki onu yaradanların – həyata qlobal baxış prizmasından baxan kainat elminin bilicilərinin idrakı rasional təfəkkür çərçivəsində qalmamış, insan – kosmos probleminin dərin qatlarına, mücərrəd fəzalarına daxil olmuşdur.

2. Elm aləmində kainatın yaranma səbəblərindən biri kimi ehtimal olunan «Böyük Partlayış» nəzəriyyəsinə dəlalət edən faktların fəlsəfi poeziyada bədii-metaforik formada verilməsi aşkar olunub.

3. Klassiklər «bütün yaradılmışlar yeganə Həqiqi Varlığın – Allahın sifətləri, adları, keyfiyyətləri və s.-dir və onların mövcudluğu Vahid Həyatda baş verir» - deməklə XX əsrin ortalarında elmi təsdiqini tapmış Universal Enerji konsepsiyasının ilkin yaradıcıları kimi çıxış edirlər.

4. Fəlsəfi poeziyada təqdim edilən kainatın çoxölçülü (n-ölçülü) aləmlər modeli müasir astronomiya və astrofizika elmi üçün ciddi tapıntı sayıla bilər.

«**Ezoterik ifadələrin şərhi**» adlanan dördüncü fəsil iki hissədən ibarətdir.Burada Füzulinin «Pənbeyi-dağı-cünun içrə nihandır bədənim...» misrasının yeni fəlsəfi şərhini təqdim etmişik. Bütövlükdə beyt belədir: «*Pənbeyi-dağı-cünun içrə nihandır bədənim, // Diri olduqca libasım budur, ölsəm kəfənim*». Şərhi: «Bədənim onu qoruyan pənbə dağın içində gizlindir» söyləyir.Burada insan bədəninin elektromaqnit şüalanması olan auradan söhbət gedir.Bu yarımfəsildə "aura" ideyasının tədqiqi tarixinə nəzər salınır, auranın simvolları və simvolik təsvirləri (Misir freskalarındakı anx açarı, ikonaların təsvirlərindəki parlaq halə) haqqında məlumat verilir. Nəsiminin - *Sorsalar səndən rəqibi sən nəsindən biləsən, // Mən bilirəm sözü əgri ənsəsindən bəllidir*[1] – beytinin şərhi verilir.

İkinci yarımfəsil «"Gözəlliy"in dərki» adlanır. Nizami, Nəsimi, Füzuli kimi dahi mütəfəkkirlərin gözəlliklə bağlı görüşlərinin insanın ilahi mənşəyinə qayıdışı ideyasına söykəndiyi göstərilir. Fəl.ü.e.d.A.Əsədov yazır:" Gözəllik Allahdan gəlir, ilahi mənşəlidir, Allaha yaxın olmanın ifadəsidir, dünyanın ilahi mahiyyətinə qayıdışdır".[2] Həqiqi gözəllik fəlsəfəsinin bünövrəsi kamil insan ideyası üzərində ucalır.

«**Nəticə**» hissəsində tədqiqat işinə yekun vurulur, nəticələr ayrı-ayrı bəndlər şəklində verilir. Orada göstərilir ki, tarix boyu gizli saxlanılan biliklər ezoterik mətnlərdə - poetik nümunələrdə yerləşdirilib.Müəyyən inkişaf mərhələsində dayanan cəmiyyətin qəbul etməyə hələ hazır olmadığı

[1] Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, s. 120.
[2] Əsədov A. Gözəlliyin fəlsəfəsi. Bakı: Nurlan, 2005, s. 109.

biliklərin açılmaması mexanizmini tənzimləyən metafora həm də ezoterik biliklərin əldə olunması işində açar funksiyasını yerinə yetirir. Dahi mütəfəkkirlərimizin – Nizaminin, Nəsiminin və Füzulinin irsinin araşdırılması, metaforik dilinin fəlsəfi interpretasiyası gizli-ezoterik bilikləri insanlara qaytarmaq şansını verir. Belə biliklər tarixin bütün dövrlərində aktuallığını saxlayan, insanın daxili potensialını, ruhunun imkanlarını üzə çıxarmaq, inkişaf etdirtmək işinə xidmət edir. Müəlliflərin ilkin nəzərdə tutduqları mənaları üzə çıxarılmış poetik nümunələr bəşəriyyətə xilas yolunu göstərən təlimat kimi dəyərləndirilir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı monoqrafiya, məqalə və tezislərində əks olunub**:

1.Klassik poeziya: ezoterik xəzinə. Monoqrafiya. Bakı: Bakı Universiteti nəşriyyatı, 2009, 328 s.

2. Okkultizm, yoxsa reallıq // "Ekologiya, fəlsəfə, mədəniyyət" jurnalı, 38-ci buraxılış, AMEA-nın "Elm və təhsil" nəşriyyatı, Bakı, 2004, s. 53-61

3. Nizami Gəncəvinin "Yeddi gözəl" əslində... // "Ekologiya, fəlsəfə, mədəniyyət" jurnalı, 40-cı buraxılış, AMEA nəşriyyatı 2004, s. 97-104

4. Sufiliyin estetikası // "Dil və ədəbiyyat", Beynəlxalq elmi-nəzəri jurnal № 4 (46), 2005, s. 150-151

5. Gözəllik dünyanı xilas edə bilərmi? // "Dil və ədəbiyyat", Beynəlxalq elmi-nəzəri jurnal №-1 (49), 2006, s. 92-54

6. Azərbaycan fəlsəfi poeziyasında kosmoqoniya məsələsi // Şərq-Qərb: Sivilizasiyaların dialoqu. Elmi-nəzəri jurnal № 1 (2), AMEA nəşriyyatı, 2006, s. 134-143

7. Azərbaycan fəlsəfi poeziyasında rəmzlər (Nöqtə rəmzi) // Bakı Universitetinin xəbərləri, № 2, 2006, s. 213-217

8. Azərbaycan fəlsəfi poeziyasında okkult dünyagörüş / "Filologiyanın aktual problemləri" mövzusunda elmi-nəzəri konfransın materialları, BDU, 2006, s. 127-137

9. Klassik yazarlar nefs haqqında // "Turnalar Uluslararası türk dili, edebiyet ve çevri dergisi № 27, Kuzey Kıbrıs Türk Cumhuriyyeti (KKTC), 2007, s. 56-61

10. Nəfsdən təmizləmə nicat yoludur // Azərbaycan Dillər Universitetinin elmi xəbərləri. Bakı, 2007, № 6, s. 312-317

11. Yunus İmrə yaradıcılığında sakramental biliklər (I hissə) // "Çağrı" kültür Folklor Dergisi № 579. Ankara, şubat 2008, s. 13-15

12. Yunus İmrə yaradıcılığında sakramental biliklər (II hissə) // "Çağrı" kültür sanat Folklor Dergisi № 581. Ankara, nisan 2008, s. 11-13

13. Türk və Azərbaycan klassik poeziyasında paralellər // Bakı Dövlət Universitetinin elmi xəbərləri. Bakı, 2008, № 1, s. 21-29

14. Xeyir və Şər fəlsəfi poeziya konteksində // AMEA. Fəldəfə və Siyasi-Hüquqi Tədqiqatlar. Şərq Qərb: Sivilizasiyaların dialoqu, 2008, № 2 -3 (10)

15. Nizami hər zaman müasirdir / Yazıçı və zaman Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş konfransın materialları. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, s. 156-160

16. Mövlana Celaleddin Ruminin qayb sırları hakkında söyledikleri // "Çağrı" Kültür Sanat Folklor Dergisi № 587. Ankara, 2008, s. 6-8 (ixtisarla)

17. Mövlana Cəlaləddin Rumi qayb sirləri haqqında // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti № 6, 2009, s. 279-285

18. Mistik biliklər nə üçün lazımdır // Elmi xəbərlər. Azərbaycan Dillər Univeristeti, Bakı 2009, № 4, s. 384-390

19. Azərbaycan fəlsəfi poeziyasında sakral biliklər // Elmi əsərlər. Bakı Slavyan Universiteti, № 2, 2009, s. 24-32

20. Fəlsəfi poeziyada fələklər məsələsi // "Dünyaya baxış" Avrasiya Universiteti, 2009, №2, s. 143-148

21. Восточные мудрецы о сакральном // Вестник МГОУ серия . «Философские науки» № 1, 2010, s. 88-92

22. Fəlsəfi poeziyamızın ezoterik müstəvisindəki "Vahid Həyat" konsepsiyası // Folklor İnstitutu, II, 2010, s. 153-160

23. Klassik poeziyanın ezoterik müstəvisi // Azərbaycan filologiyasının aktual problemləri. Cəfər Xəndanın 100 illik yubileyinə həsr olunmuş elmi-nəzəri konfransının materialları. Bakı, 20-21 may, 2010, s. 89-93

24. Klassik şeir ezoterik bilik mənbəyi kimi // Elmi xəbərlər. Azərbaycan Dillər Universiteti. Bakı, 2010, s. 181-186

25. Фялсяфи поезийанын арашдырылмасы вя тядриси // Азярбайсан Милли Елмляр Академийасы М.Фцзули адына Ялйазмалар Институту. Филолоэийа мясяляляри. Бакы: Елм вя Тящсил, 2010, № 9

26. Əksliklərin vəhdətdə dərk olunması probleminin ədəbiyyatda təzahürü / «Şərq fəlsəfəsinin aktual problemləri» mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2011, s. 329-331

27. Klassik poeziya nümayəndələri rəmzi söz haqqında / «Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemi" XII Respublika elmi konfransının materialları. AMEA Füzuli adına Əlyazmalar İnstitutu, 3 iyun,2011, s. 217-221

28. Sufi təfəkküründə "Azadlıq"anlayışı // Dövlət İdarəçiliyi: Nəzə-

riyyə və təcrübə.Azərb. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəşriyyatı, 2011, № 1 (33), s. 204-207

29. Философское осознание эзотеризма // «Поиск» научный журнал Министерства Образования и Науки. Серия гуманитарных наук. Научное приложение Международного научно-педагогического журнала «Высшая школа Казахстана», 2011, № 2, с. 171-177

30. AFSEA-da keçirilən Fəlsəfi Diskursda iştirak (fəlsəfi esselər) // Fəlsəfə və Sosial-siyasi elmlər (Elmi-nəzəri jurnal).Bakı, 2011, № 1 (31), s. 155-156, 162-164, 169-171, 177-179

31. Раздумья над поэзией Насими // «Аль-Фараби» философско-политический и духовно-познавательный журнал. Алматы, №3 (35), 2011, с. 96-100

32. Dünyanın dərkində ezoterik biliklərin rolu // AFSEA Fəlsəfə və Sosial-siyasi elmlər (Elmi-nəzəri jurnal).Bakı, 2011, № 1 (31), s. 39-48

33. Klassik ədəbiyyatda "yenidən dirilmə"nin fəlsəfi dərki // "Dil və Ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal, BDU, 2011, №3 (79).

34.Satiradan ezoterikaya / M.Ə.Sabirin 150 illik yubileyinə həsr olunmuş Respublika Elmi-nəzəri konfrans materialları. Bakı, 17-18 may 2012, s. 7-18



**М.А.Абдуллаева**

# ФИЛОСОФСКИЙ АНАЛИЗ ЭЗОТЕРИЧЕСКОГО МИРОВОЗЗРЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ХУДОЖЕСТВЕННОМ МЫШЛЕНИИ (на основе творчества Низами, Насими и Физули)

Всестороннее и системное исследование философской поэзии как источника сакральных знаний о Человеке и Вселенной, о микро- и макрокосмосе, их взаимопроникающих связях и общих закономерностях развития необходимо для познания философского миропонимания и мироощущения определенной эпохи. Сакральные знания, являющиеся эзотеризмом философской поэзии, проявляются на символическом уровне философских произведений. Главным направлением диссертации является исследование внутреннего механизма процесса иррационального познания как универсальной формы мышления в контексте азербайджанской философской поэзии, а также в философско-мистических традициях Востока.

К исследованию были привлечены труды древних восточных мыслителей, таких как Абу Хамид аль-Газали, Мовлана Джелаледдин Руми, Мухйиддин Ибн аль-Араби и мн.др. Исследовались также произведения таких индийских мыслителей, как Шивая Субрамуниясвами, Шри Ауробиндо, Свами Вивекананда, Шри Матаджи, Сатья Саи Баба, Хазрат Инаят Хан, Пир Вилаят Инайат Хан и др. Использовались также и работы западных философов – Пифагора, Платона, Вольтера, Гете, Ницше, Терезы Авильской, Н.Бердяева,Рене Генона и др. В качестве источников были привлечены и Священные книги – Коран и Библия. Главными источниками работы являются произведения Низами, Насими и Физули.

Диссертация состосит из введения, 4 глав, заключения и списка использованной литературы.

В первой главе («Отражение эзотерических знаний в философской поэзии классической эпохи (на основе творчества Низами, Насими и Физули)») предпринята попытка раскрытия проблемы эзотерических знаний в контексте философской поэзии и обосновывается важность её исследования.

Вторая глава («Этапы иррационального познания – мистический путь любви») посвящена рассмотрению суфийских духовных стоянок (магамов) на восходящих этапах иррационального познания на основе таких произведений великих мыслителей и мастеров слова, как «Семь

красавиц» Низами и «Семь чаш» Физули. Здесь также раскрывается внутренняя связь процесса иррационального познания с энергетическими центрами человека – чакрами. Опираясь на научные и философско-мистические источники Востока, обосновывается идея чакры как определенного уровня иррационального сознания, этапа пути духовной трансформации. Здесь же проводится сравнительный анализ философско-мистических традиций суфизма и индуизма.

Третья глава («Задачи космогонии в контексте философской поэзии») посвящена рассмотрению космогонических воззрений великих азербайджанских мыслителей – Низами, Насими и Физули. Отмечается универсальность подобных воззрений, охватывающих многие грани знаний о происхождении Вселенной и ее развитии; о Человеке и его неограниченных возможностях; о философии Всеединства, в основе которой лежит концепция Универсальной энергии.

В четвертой главе («Интерпретация эзотерических выражений») предпринята попытка философской интерпретации некоторых понятий, передаваемых великими мастерами слова в своих произведениях символическим языком. Выявляется истинный смысл подобных понятий, находящийся на внутреннем – эзотерическом уровне. В этой главе рассматривается так же философское понимание спасительной миссии феномена «красоты», дается философское толкование известной сентенции – «Красота спасёт мир» в контексте азербайджанской философской поэзии. Отмечается созвучие этого высказывания с одной из исследуемых в диссертации проблем – проблемы достижения человеком духовного и физического совершенства, гармонии со Вселенной. Опираясь на высказывания великих мыслителей выдвигается следующий вывод: феномен Красоты – это истинная свобода Совершенного Человека.

В «Заключении» диссертации выводятся основные положения исследования



**M.A.Abdullayeva**

## PHILOSOPHICAL ANALYSIS OF ESOTERIC WORLD OUTLOOK OF AZERBAIJANIAN ARTISTIC MENTALITY (on the basis of creation of Nizami, Nasimi and Fizuli)

Comprehensive and system study of philosophical poetry as a sourse of sacral knowledge about Person and the Universe, macro- and microspace, their interpenetrative connection and common laws of the development is necessary for perception of philosophical interpretation of the world and disposition of a certain epoch. Sacral knowledge being esoterism of philosophical poetry manifests itself on the symbolic level of philosophical works. The main direction of the dissertation is research of the innermechanism of the process of irrational cognition as a universal form of mentality in the context of Azerbaijanian philosophical poetry and also in philosophical-mystical traditions of the West and the East.

The works by such ancient oriental thinkers as Abu Khalid al Gazali, Shihabeddin Suhravardi, Movlana Jalaladdin Rumi, Muhyiddin Ibn al-Arabi and others have been studied. The works by such Indian thinkers as Shivaya Subramuniyasvami, Shri Aurobindo Svami Vivekanand, Shri Matadji, Satya Baba, Khazrat Inayat Khan and such western philosophers as Pythagor, Plato, Voltaire, Goethe, Nietzsche, Teresa of Avila, Alice Baily, N.Berdyayev and others have been also used. Such sacred books as the Koran and the Bible have been used as sources. The main sources are the works by Nizami, Nasimi and Fizuli.

The dissertation consists of “Introduction”, five chapters, “Conclusion” and bibliography.

In “Introduction” are substantiated urgency of subject, scientific novelty, theoretical and practical significance of the research; is given information about main purpose, tasks, objects, methods of research, appraisal and structure of the dissertation.

In the first chapter “Reflection of esoteric knowledge in philosophical poetry of the classic epoch ” (on the basis of creation of Nizami, Nasimi and Fizuli)” is undertaken attempt to reveal the problem of esoteric knowledge in the context of philosophical poetry and is substantiated importance of its research.

The second chapter “The stages of irrational cognitive-mystical way of love”deals with examination of sufi mental sites (magams) of the rising stages of irrational cognition on the basis of such works by great thinkers and skilled reciters as “Seven beaties” by Nizami, “Seven cups” by Fizuli.

Inner connection between the process of irrational cognition and energy centers of a person (chakras) is revealed in this chapter. The idea of chakra as a certain level of consciousness, a stage of mental transformation is substantiated basing on scientific and philosophical-mystical traditions of Sufism and Hinduism are comparatively analysed in this chapter.

The third chapter “Problems of cosmogony in the context of philosophical poetry”is dedicated to examination of cosmogonic views of the great Azerbaijanian thinkers - Nizami, Nasimi and Fizuli. Is emphasized the universality of such views that embrace all brinks of knowledge about origin and development of the Universe, about Person and his unlimited potential, about philosophy of universal unity which basis is conception of the Universal Energy.

In the fourth chapter “Interpretation of esoteric expressions” is undertaken attempt of philosophical interpretation of some concepts told by skilled reciters in symbolic language in their works. The true sence of such concepts that is on the inner esoteric level is revealed.

In the fifth chapter “Philosophical comprehension of savior mission of beauty phenomenon” is given philosophical interpretation of the famous sententious utterance “The beauty will save the world” in the context of the Azerbaijanian philosophical poetry. Is emphasized the consonance of this statement with one of the problems examined in the dissertation – the problem of achievement the mental and physical perfection, harmony with the Universe by Person. The following conclusion is based on the statements of the great thinkers: beauty phenomenon is true freedom of a perfect Person.

In “Conclusion” are generalized the principle results of the research.



**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

***На правах рукописи***

**АБДУЛЛАЕВА МЕТАНЕТ АЛИ кызы**

# ФИЛОСОФСКИЙ АНАЛИЗ ЭЗОТЕРИЧЕСКОГО МИРОВОЗЗРЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ХУДОЖЕСТВЕННОМ МЫШЛЕНИИ
## (на основе творчества Низами, Насими и Физули)

**7210.01 – История философии**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философских наук**

**БАКУ - 2013**